## DOQQUZ AYIN YEKUNLARI: NAİLİYYƏTLƏR VƏ PREZİDENTİN QARŞIYA QOYDUĞU VƏZİFƏLƏR

Oktyabrın 9-da Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası çox maraqlı məsələlərin müzakirəsi ilə keçib. Dövlət başçısı söylədiyi geniş nitqində keçən müddətdə əldə edilən nailiyyətləri ifadə edib. Onların müstəqil dövlət quruculuğunda oynadığı rol barədə lakonik və dəqiq fikir ifadə edən Prezident İlham Əliyev, eyni zamanda, qarşıda duran vəzifələrdən konkret istiqamətlər üzrə bəhs edib. Daxili və xarici siyasətdə üstünlük verilən məqamları vurğulayıb....



Bax səh. 4

## MİLLİ MƏCLİSİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Oktyabrın 12-də Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov iclasın gündəliyi haqqında məlumat verib. Əvvəlcə, millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Milli Məclisin deputatı Sevinc Hüseynova çıxışında deyib ki, hazırda Azərbaycan-Rusiya münasibətləri ən yüksək səviyyədədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin son dövrlər bu istiqamətdə gördükləri işlər münasibətlərimizi daha da dərinləşdirib...



Bax səh. 5



Yeni Azərbaycan Partiyası Azərbaycanı müstəqillik yolunda inkişaf etdirməyə qadir bir partiyadır

# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. 13 oktyabr 2018-ci il, şənbə / № 194 (5321). Yeni Azərbaycan Partiyasının orqanı. Qiyməti 40 qəpik

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi





## Prezidentin iş günü

Prezident İlham Əliyev Ağcabədi rayonunun Salmanbəyli kəndində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Arif Bəylər oğlu Əzizova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

### Azərbaycan möhkəm ictimai-siyasi sabitlik əmsalına görə postsovet məkanında birinci yerdədir



Yüksək iqtisadi inkişafa malik, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanda bütün sahələrdə uğurlar əldə edilib. Bunun nəticəsidir ki, bölgənin əsas iqtisadi-siyasi aktoru sayılan Azərbaycan...

Bax səh. 6

### Azərbaycan ötən dövr ərzində çox mühüm nailiyyətlər əldə edib

...Bu gün Azərbaycan beynəlxalq miqyasda həm demokratik dövlət, həm özünəməxsus inkişaf modelinə malik olan ölkə, həm də etibarlı tərəfdaş kimi tanınır. Şübhəsiz ki, bu, uğurlu, müasir çağırışlara cavab verən daxili və xarici siyasət sayəsində mümkün olub. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu - inkişaf siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan ötən müddət ərzində çox mühüm nailiyyətlər əldə edib, bütün sahələrin tərəqqisinə nail olmağı bacarıb. Heç şübhəsiz, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır. İnkişafın təməli kimi dəyərləndirilən sabitliyin ölkəmizdə yüksək səviyyədə...

Bax səh. 6

*Hikmət Hacıyev:*

### Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri cəfəngiyatdır



Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri və Azərbaycanın guya...

Bax səh. 5

### Beynəlxalq Frankofoniya Təşkilatının İrəvan sammiti uğursuzluqla nəticələndi

Məlum olduğu kimi, 11-12 oktyabr tarixlərində Ermənistanın paytaxtı İrəvanda Beynəlxalq Frankofoniya Təşkilatının (BFT) 17-ci zirvə görüşü keçirilib. Təşkilatın nizamnaməsinə əsasən, dövlətləri bu təşkilat çərçivəsində birləşdirən əsas amil fransız dili və fransız mədəniyyətinə yaxınlıq olsa da, dünyada sülhün və əmin-amanlığın, insan hüquq və azadlıqlarının təşviq edilməsi arzusu da BFT-nin missiyasını və fəaliyyətinin əsas prinsiplərini təşkil edir. Elə əsl problem də buradan başlanır. BFT-nin növbəti zirvə görüşünün başqa bir ölkənin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərini pozmuş, minlərlə günahsız insanı qətlə yetirmiş bir dövlətin ərazisində...

Bax səh. 7

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi

*Bu il müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ölkəmizdə geniş qeyd edilir. Prezident İlham Əliyev bu hadisəni xalqımızın tarixinin çox mühüm və şərəfli səhifələrindən biri kimi xarakterizə edərək demişdir: "Biz haqlı olaraq fəxr edirik ki, müsəlman aləmində ilk demokratik respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha göstərir ki, azərbaycanlılar azadlıqsevər və mütərəqqi xalqdır". Dövlətimizin başçısı Cümhuriyyətin tarixinə, onun qurucularının xatirəsinə daim böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl Prezidentin Sərəncamı ilə Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmış, 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur. Lakin Prezident İlham Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə və onun qurucularının xatirəsinə ən böyük ehtiramı onların ideyalarını yaşatması, demokratiya arzularını reallaşdırması, Azərbaycanın müstəqilliyini və suverenliyini etibarlı şəkildə qorumasıdır, desək heç də yanılmarıq...*

*Bir neçə gündən sonra Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 27-ci ildönümünü qeyd edəcəyik. Orta və yaşlı nəsil müstəqilliyin ilk illərinin necə ağır keçdiyini yaxşı xatırlayır. Bir tərəfdən, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində baş qaldıran separatizm daha da güclənmişdi, Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmişdi, soydaşlarımızın 1 milyona qədəri qaçqın və məcburi köçkünə çevrilmişdi, digər tərəfdən isə ənənəvi iqtisadi-ticarət əlaqələri pozulmuşdu, ölkəni iqtisadi və siyasi böhran bürümüşdü. Yalnız 1993-cü ildə Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra ölkə tədricən bu böhrandan çıxdı, ictimai-siyasi sabitlik, milli-vətəndaş birliyi yaradıldı və cəmiyyət həyatının bütün sahələrində yenidənqurmaya başlanıldı. Ümummilli liderin siyasi kursunun yeganə düzgün yol olduğunu görən xalqımız 2003-cü il oktyabrın 15-də keçirilən seçkilərdə bu siyasətin layiqli davamçısı kimi cənab İlham Əliyevi dəstəkləyərək 76,8 faiz səslə Onu özünə yeni Prezident seçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti, seçkiqabağı təşviqat dövründə səsləndirdiyi "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" ifadəsi qısa müddətdə Ona xalq arasında geniş populyarlıq, sonsuz inam və etibar qazandırdı. Elə bu səbəbdən 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də İlham Əliyev yenidən inamlı qələbə qazandı. Oktyabrın 15-də Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətinin 15 ili tamam olur. Bununla əlaqədar olaraq, cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti postundakı fəaliyyətinin 15 illiyi haqqında bəzi düşüncələrimi oxuculara çatdırmaq istəyirəm.*



*Ümumi formada qiymətləndirsək,* cənab İlham Əliyev özünün 15 illik prezidentliyi dövründə, ***ilk növbədə,* Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlətmiş, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin etmiş, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olmuşdur. Hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır. Bununla yanaşı, digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirmişdir.**

***İkincisi,* Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət, formalaşdırdığı səmərəli dövlət idarəçiliyi sayəsində son 15 ildə Azərbaycanın regional və beynəlxalq nüfuzu getdikcə artmış, Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazdakı geosiyasi, geoiqtisadi və hərbi-geostrateji mövqeləri daha da güclənmişdir. Ölkənin təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maddi, mənəvi və insan resurslarından səmərəli istifadəyə, transmilli nəqliyyat-kommunikasiya və enerji dəhlizləri sahəsində həyata keçirilən uğurlu regional siyasət və düzgün mövqe seçiminə, daxili və xarici siyasətin müstəqillik əmsalına, sosial-iqtisadi inkişafın davamlılıq və dinamiklik göstəricilərinə, gələcək inkişaf potensialına və digər parametrlərinə görə də hazırda Azərbaycan regionun özünü tam təmin edən dövlətləri sırasında ilk üçlükdə qərarlaşmışdır.**

*Ayrı-ayrı sahələr üzrə təhlil aparsaq görərik ki,* son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi** istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir. Məhz bunun nəticəsidir ki, hazırda ölkədə 55 siyasi partiya, 3 mindən çox qeyri-hökumət təşkilatı (4 mindən çox qeyri-kommersiya təşkilatı), 5 mindən çox kütləvi informasiya vasitəsi, habelə sıralarında 2 milyona yaxın insanı birləşdirən həmkarlar ittifaqları sərbəst fəaliyyət göstərir.

2012-ci ildə "Siyasi partiyalar haqqında" Qanuna edilmiş əlavələrə görə, siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün hər il dövlət büdcəsindən vəsait ayrılır. Siyasi partiyalar ölkədə azad, şəffaf və demokratik şəraitdə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində fəal iştirak edir. Bu isə Azərbaycanda siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin formalaşdığını göstərir.

Ölkədə vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının müstəqilliyinin və maliyyə imkanlarının artırılmasına ciddi əhəmiyyət verilir. Cənab Prezidentin sərəncamları ilə 2007-ci ildə "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Konsepsiyası" təsdiq edilmiş, bu sahədə ixtisaslaşmış qurum kimi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır. 2008-ci ildə fəaliyyətə başlayan Şura ictimai təşəbbüsləri dəstəkləyərək QHT-lərin minlərlə layihəsini maliyyələşdirmişdir.

Azərbaycanda söz və məlumat azadlığının təmin olunması, demokratik, plüralist mətbuatın formalaşması dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Prezident İlham Əliyev keçən dövr ərzində KİV-lərin maddi-texniki bazasının möhkəmləndirilməsi, jurnalistlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı qərarlar qəbul etmiş, müvafiq fərman və sərəncamlar imzalamışdır. Hazırda ölkədə KİV-lərin ümumi sayı 5 mini, Az.domenində qeydiyyata alınmış internet saytlarının sayı isə 20 mini ötmüşdür. 10 milyona yaxın əhalinin 80 faizi internet, 3 milyona qədəri isə sosial şəbəkə istifadəçisidir. Azərbaycanda 11 ümumrespublika, 4 peyk, 13 regional, 17 kabel, 25 internet (İP) televiziyası, 16 radio fəaliyyət göstərir. 2005-ci ildə ikinci dövlət kanalının bazasında İctimai Televiziya və Radio Yayımları Şirkəti təsis edilmiş və fəaliyyətə başlamışdır.

2008-ci ildə cənab Prezident "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın təsdiq edilməsi, 2009-cu ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması haqqında sərəncamlar imzalamışdır. İndiyə qədər Fond vasitəsilə medianın inkişafına ümumilikdə 60 milyon manat vəsait yönəldilmişdir. Bundan başqa, cənab İlham Əliyevin sərəncamlarına əsasən jurnalistlər üçün dövlət hesabına 410 mənzildən ibarət iki yaşayış binası tikilmiş və KİV nümayəndələrinin istifadəsinə verilmişdir. Hazırda 255 mənzildən ibarət üçüncü binanın tikintisi davam edir.

Prezident İlham Əliyevin hakimiyyəti illərində siyasi sferada olduğu kimi, **iqtisadi sahədə də ciddi uğurlar qazanılmışdır.** Onun rəhbərliyi ilə son 15 ildə həyata keçirilmiş ardıcıl və məqsədyönlü iqtisadi siyasət nəticəsində ölkədə planlı sosialist iqtisadiyyatından **bazar iqtisadiyyatına keçid prosesinin başa çatması təmin edilmişdir.** Bu dövrdə ÜDM-də özəl sektorun payı 80 faizi ötmüş, makroiqtisadi sabitlik möhkəmləndirilmiş, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlmişdir. 2004-2018-ci illər ərzində iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və bölgələrin davamlı yüksəlişi məqsədilə regionların sosial-iqtisadi inkişafına dair üç dövlət proqramı icra olunmuşdur. Hazırda dördüncü proqramın qəbul edilməsinə hazırlıq görülür.

Ötən dövr ərzində **qeyri-neft sənayesi ardıcıl şəkildə inkişaf etdirilmiş, ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən və müasir texnologiyalara əsaslanan minlərlə yeni müəssisə fəaliyyətə başlamışdır.** 2014-cü ilin dekabrında təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq, ölkə ərazisində çoxsaylı sənaye parkı və məhəllələri, texnoparklar (Sumqayıt, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Neftçala, Masallı və s.) yaradılmış, istehsal sahələrinin genişləndirilməsi, qeyri-neft sənayesinin ixrac imkanlarının artırılması və innovativ istehsalın inkişaf etdirilməsi istiqamətində ciddi tədbirlər görülmüşdür. Sumqayıtda alüminium, karbamid, plastik emalı zavodları, "SOCAR Polymer" şirkətinin polipropilen və yüksək sıxlıqlı polietilen zavodları (bu zavodlara qoyulan sərmayənin həcmi 800 milyon dollardan çoxdur), Balaxanıda məişət tullantılarının təkrar emalı zavodu, Bakı gəmiqayırma zavodu, Gəncə, Naxçıvan və Neftçalada avtomobil zavodları, Sumqayıt, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodları, Gəncə alüminium yarımfabrikatı, kənd təsərrüfatı texnikası zavodları və digər sənaye müəssisələri həmin illərdə istifadəyə verilərək ölkənin iqtisadi potensialının gücləndirilməsində mühüm rol oynayır.

**Aqrar sektorda həyata keçirilən islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçılarına edilən güzəşt və yardımlar ölkə iqtisadiyyatında bu sahənin ardıcıl inkişafına zəmin yaratmışdır.** 2003-2018-ci illərdə meliorasiya tədbirlərinə ayrılan vəsaitin həcmi 6 dəfə, bu sahəyə əsaslı kapital qoyuluşu 21 dəfə artmışdır. Ölkədə 4 iri su anbarı (Taxtakörpü, Şəmkirçay, Göytəpə və Tovuzçay), 4 min kilometr suvarma kanalları, 2,4 min kilometr kollektor-drenaj şəbəkələri tikilmiş və bərpa olunmuş, 360 min hektar torpağın su təminatı, 264 min hektar sahədə meliorativ vəziyyət yaxşılaşdırılmış, 219 min hektar yeni suvarılan torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılıq, taxılçılıq, baramaçılıq, üzümçülük, çayçılıq, sitrus meyvəçiliyi, çəltikçilik və arıçılığın dirçəldilməsi, fındıq, badam, xurma, zeytun, nar bağlarının genişləndirilməsi istiqamətində görülən işlər ölkənin ixrac potensialını əhəmiyyətli dərəcədə artırmışdır.

On beş il ərzində **Azərbaycan iqtisadiyyatı 3,2 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmış, qeyri-neft ixracı 4,1 dəfə çoxalmışdır. Azərbaycanın valyuta ehtiyatları 1,8 milyard dollardan (2004) 46 milyard dollara (2018) çatdırılmışdır. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur.** Müstəqillik dövründə Azərbaycana yatırılan sərmayənin 93 faizini təşkil edən həmin investisiyanın təxminən yarısı daxili mənbələrin payına düşür.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycanda nəhəng transmilli energetika və nəqliyyat layihələri həyata keçirilmiş,** 2006-cı ildə Xəzər və Aralıq dənizlərini birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri (uzunluğu 1767 kilometr), 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri (uzunluğu 980 kilometr) istifadəyə verilmişdir. 2014-cü il sentyabrın 20-də Avropanın enerji təhlükəsizliyinin, həmçinin Azərbaycanın perspektiv inkişafının və iqtisadi maraqlarının təmin edilməsində böyük rol oynayacaq Cənub Qaz Dəhlizinin təməli qoyulmuşdur. Uzunluğu 3500 kilometr, dəyəri 40 milyard dollardan çox olan bu qlobal layihənin icrası sürətlə getmiş və 2018-ci il mayın 29-da Bakıda Cənub Qaz Dəhlizinin, iyunun 12-də isə onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimi keçirilmişdir. TAP layihəsinin icrası isə qrafik üzrə davam etdirilir. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in ("Əsrin müqaviləsi") müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Yeni şərtlərə görə SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılması, mənfəət neftinin 75 faizinin Azərbaycana verilməsi nəzərdə tutulmuşdur. Bundan əlavə, 8 il ərzində xarici investorlar tərəfindən ölkəyə bərabər hissələrlə bonus kimi 3,6 milyard dollar ödəniləcəkdir. Müqavilənin müddətinin uzadılması Azərbaycanda uzun illər bundan sonra da neftin hasilat səviyyəsinin sabit qalmasına, neft sektoruna xarici investisiya qoyuluşunun təmin olunmasına imkan yaratmışdır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə **Avropa və Asiyanı birləşdirən Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülmüşdür.** Təməli 2007-ci ildə qoyulmuş Bakı-Tbilisi-Qars dəmir yolunun 2017-ci il oktyabrın 30-da Bakıda rəsmi açılışı olmuşdur. Azərbaycanın Rusiya Federasiyası, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilmişdir. 2018-ci il sentyabrın 18-də 204 kilometr uzunluğunda yeni Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi magistral avtomobil yolunun istifadəyə verilməsi ilə Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsinin reallaşması üçün bütün işlər başa çatdırılmışdır. Azərbaycan siyasi, iqtisadi və strateji baxımdan böyük əhəmiyyətə malik həmin beynəlxalq nəqliyyat dəhlizlərində fəal iştirak etməklə Avrasiyada mühüm tranzit və logistika mərkəzlərindən birinə çevrilmişdir.

Cənab İlham Əliyevin prezidentliyi dövründə **Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur.** 2010-cu ildə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti yaradılmış, 2013-cü il ölkədə "İnformasiya Texnologiyaları İli" elan edilmişdir. Həmin il fevralın 8-də Azərbaycanın ilk telekommunikasiya peyki "Azerspace-1", 2014-cü ildə ikinci - Yer səthini müşahidə edən "Azersky" peyki, bu ilin sentyabrında isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılmışdır.

Son 15 ildə **ölkənin sosial-mədəni və təsərrüfat infrastrukturu tamamilə yenilənmişdir.** Bu dövrdə 3100-dən çox məktəb, 642 tibb müəssisəsi tikilmiş, yaxud əsaslı təmir edilmişdir. Yüzlərlə tarixi binada, muzey, teatr və kitabxanada geniş yenidənqurma işləri həyata keçirilmiş, ölkənin bütün ali təhsil ocaqları, həmçinin AMEA-nın nəzdində olan institut və müəssisələr təmir edilərək yeni avadanlıqla təchiz olunmuşdur. Ölkədə 15 min kilometr yol çəkilmiş, 443 körpü inşa olunmuşdur. Bakıda 4 yeni metro stansiyası istifadəyə verilmiş, bir neçə stansiyada yenidənqurma işləri aparılmışdır. Xəzər dənizində ən böyük beynəlxalq dəniz limanı - Ələt Dəniz Ticarət Limanı fəaliyyətə başlamışdır. Azərbaycanda 7 hava limanı tamamilə yenidən qurularaq istifadəyə verilmişdir. Onlardan altısı (Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Qəbələ, Zaqatala) beynəlxalq hava limanı statusu almışdır. Bakının Heydər Əliyev Beynəlxalq Aeroportu dünyanın "5 ulduz"lu 9 əsas hava limanı sırasına daxil olmuşdur.

2003-2018-ci illər ərzində **ölkədə ümumi generasiya gücü 2500 MVt olan 30 elektrik stansiyası tikilib istifadəyə verilmiş və Azərbaycan regionda elektrik enerjisi ixracatçısına çevrilmişdir.** İlin sonuna qədər 400 meqavat gücündə daha bir elektrik stansiyası da ("Şimal-2") istifadəyə veriləcəkdir. **Bölgələrdə qazlaşdırma sürətlə aparılmış və ölkə üzrə təbii qaz təchizatı 51 faizdən 95 faizə yüksəlmişdir. Nəhəng Oğuz-Qəbələ-Bakı su kəməri layihəsi icra edilmiş, Ceyranbatanda dünyanın ən böyük sutəmizləyici qurğusu inşa olunmuş, regionlarda çoxsaylı subartezian quyuları qazılmış, çaylar boyu yüzlərlə modul tipli kiçik sutəmizləyici qurğular istifadəyə verilmiş, əhalinin fasiləsiz içməli su ilə təminatı yaxşılaşdırılmışdır.**

Prezident İlham Əliyevin təşəbbüsü ilə **əhalinin sosial müdafiəsini gücləndirmək istiqamətində ciddi tədbirlər həyata keçirilmişdir.** Bu məqsədlə vətəndaşların təbii qazdan, içməli su və kanalizasiya xidmətlərindən istifadəyə görə əvvəlki illərdə yaranmış borcları (müvafiq olaraq 327 milyon və 294,2 milyon manat) tam silinmiş, sovet dövründən qalmış əmanətlərə görə 1 milyard manat kompensasiya ödənilmişdir. 15 il ərzində ölkədə 1,9 milyon yeni iş yeri açılmış, maaşlar 5 dəfədən, pensiyalar isə 8 dəfədən çox artırılmış, işsizlik səviyyəsi 5 faizə, yoxsulluq isə 49 faizdən 5,4 faizə endirilmişdir.

Cənab İlham Əliyev prezidentliyi dövründə **ölkədə ictimai və sosial xidmətlər sahəsində ciddi institusional islahatlar aparmışdır.** Onun müvafiq fərman və sərəncamı ilə 2012-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyi təsis edilmiş, dövlət orqanları tərəfindən əhaliyə göstərilən xidmətləri vahid sistemdə birləşdirən **"ASAN xidmət"** mərkəzləri yaradılmışdır. Bu mərkəzlərə 2013-2018-ci illər ərzində 24 milyona yaxın müraciət daxil olmuş, xidmətlərin əhali arasında bəyənilmə əmsalı 100 faizə yaxınlaşmışdır. Dünyada Azərbaycanın brendi kimi tanınmış "ASAN xidmət" modeli artıq başqa ölkələrdə də tətbiq edilir. Prezident İlham Əliyev 2018-ci ilin avqustunda əhalinin məşğulluğu, əmək və sosial müdafiəsi ilə bağlı çevik və innovativ xidmətlər göstərilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"ni (DOST) yaratmışdır.

**Prezident İlham Əliyev şəhid ailələri, müharibə veteranları və əlillərinə daim xüsusi qayğı ilə yanaşır. Son 15 il ərzində şəhid ailələrinə və müharibə əlillərinə dövlət hesabına 5500-dən çox fərdi ev və mənzil, 6 mindən çox minik maşını verilmişdir. İlin sonuna qədər həmin kateqoriyadan olan daha 500 nəfərin yeni mənzillərlə təmin olunacağı nəzərdə tutulmuşdur.** Azərbaycan Prezidenti bu məqsədlə Prezidentin ehtiyat fondundan 20 milyon manat vəsait ayırmışdır.

2003-2018-ci illərdə **məcburi köçkünlərin problemlərinin həlli sahəsində genişmiqyaslı işlər gö-**

**davamı 3-cü səhifədə**

# On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi

əvvəli 2-ci səhifədə

**rülmüş, ölkədəki bütün çadır düşərgələri, fin tipli qəsəbələr ləğv edilmiş, yeni salınmış 100-dən artıq qəsəbə və şəhərcikdə 265 min nəfər məskunlaşdırılmışdır.** 2016-cı ilin aprel ayında təhlükəsiz yaşayışı təmin olunmuş Cocuq Mərcanlı kəndi (Cəbrayıl rayonu) qısa müddət ərzində bərpa edilmiş, orada 150 evdən ibarət qəsəbə tikilmiş və köçkünlər öz doğma yurdlarına qayıtmışlar. Eyni zamanda, işğaldan azad olunmuş Şıxarx qəsəbəsində (Tərtər rayonu) 1170 ailə üçün yeni şəhərcik salınmışdır. Bu ilin doqquz ayında 2900 məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin olunmuşdur. İlin sonuna qədər daha 2800 ailənin ev və ya mənzillərlə təmin edilməsi nəzərdə tutulmuşdur. Təsadüfi deyil ki, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, habelə Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində böyük xidmətlərinə görə cənab İlham Əliyev 2015-ci ildə BMT-nin "Cənub-Cənub" mükafatı ilə təltif olunmuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə **Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində ardıcıl tədbirlər görülmüşdür.** 2005-ci ildə yaradılmış Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. 2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında iki min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürülmüşdür.

Prezident İlham Əliyev **Ermənistan-Azərbaycan Dağlıq Qarabağ problemi ilə bağlı prinsipial mövqe ifadə etmişdir: "Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar". 2003-2018-ci illərdə ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuşdur.** BMT Baş Assambleyasının 60-cı (2006) və 62-ci (2008) sessiyalarının qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələrdə zəbt olunmuş Azərbaycan ərazilərində ermənilərin məskunlaşdırılması, orada yanğınlar törədilməsi faktları pislənilmiş, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin yerinə yetirilməsinin vacibliyi vurğulanmışdır. AŞPA-nın (1416 saylı "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə", 2005), Avropa Parlamentinin ("Avropa İttifaqının Cənubi Qafqazda strategiyasına dair tələb", 2010) qətnamələrində, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin Bəyannaməsində (2017) və Avropa İttifaqı - Azərbaycan "Tərəfdaşlıq Prioritetləri" razılaşmasında (2018), Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının XVI (Tehran, 2012) və XVII (Marqarita, 2016) sammitlərinin, İƏT-in XI (Seneqal, 2008) və XII (Misir, 2013) zirvə toplantılarının yekun sənədlərində, ECO-nun 13-cü sammitinin (İslamabad, 2017) yekun bəyanatında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Eyni zamanda, NATO-nun 2006-cı ildən bəri keçirilən zirvə toplantılarının, o cümlədən Nyuport (2014), Varşava (2016) və Brüssel (2018) sammitlərinin yekun kommunikelərində Cənubi Qafqazdakı münaqişələrin ölkələrin ərazi bütövlüyü, suverenliyi və Helsinki Yekun Aktına əsaslanaraq həlli prinsipinin öz əksini tapması Azərbaycanın mənafeyinə cavab verir.

Prezident İlham Əliyevin **milli maraqlara söykənən xarici siyasəti nəticəsində Azərbaycan müstəqil mövqeyi ilə seçilən dövlət kimi tanınmış, onun beynəlxalq nüfuzu getdikcə yüksəlmişdir. 2011-ci ildə Azərbaycan 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir.** 2019-2022-ci illər Azərbaycan Respublikasının Hərəkata sədrlik dövrüdür. Azərbaycan Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq əlaqələri qurmuş və müvafiq sənədlər imzalamışdır.

Prezident İlham Əliyev **milli-mənəvi dəyərlərin, dini etiqad azadlığının, konfessional və etnik rəngarəngliyin, multikulturalizm və tolerantlıq ənənələrinin qorunub saxlanmasını və inkişafını təmin etmişdir. 2003-2018-ci illər ərzində ölkədə 220-dən çox məscid, kilsə, sinaqoq tikilmiş və ya bərpa olunmuşdur.** Xüsusi dini-mənəvi və tarixi-mədəni əhəmiyyət kəsb edən Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir, Əjdərbəy, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində təmir və yenidənqurma işləri aparılmışdır. Şamaxı Cümə məscidi və Gəncədə "İmamzadə" dini-mədəniyyət abidəsi əsaslı bərpa edilmiş, Bakıda Qafqazın ən böyük məscidi olan Heydər Məscidi (2014), Hacı Cavad Məscidi (2018) və dağ yəhudiləri üçün sinaqoq (2011) tikilərək dindarların istifadəsinə verilmişdir. Hazırda ölkə ərazisində 2250 məscid, 14 kilsə, 7 sinaqoq sərbəst fəaliyyət göstərir.

Prezident İlham Əliyevin sərəncamları ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmış (2014), 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan edilmişdir. Azərbaycan sivilizasiyalararası dialoq, tolerantlıq və humanitar əməkdaşlıq mövzusunda çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, bir sıra qlobal təşəbbüslər irəli sürmüşdür. 2008-ci ildə Bakıda Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına İslam ölkələri mədəniyyət nazirləri də dəvət edilmişdir. Həmin forumda Azərbaycan Prezidenti sivilizasiyalar, xalqlar və mədəniyyətlər arasında dialoq və əməkdaşlığın inkişafı naminə "Bakı Prosesi" təşəbbüsü ilə çıxış etmişdir. Sonrakı illərdə bu çərçivədə çoxsaylı beynəlxalq tədbir və layihələr həyata keçirilmişdir.

Prezident İlham Əliyev **gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir.** Eyni zamanda, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə gənc xarici ölkələrin qabaqcıl təhsil ocaqlarında təhsil almağa göndərilmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrinin reallaşdırılmasına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmış, 2013-cü ildə gənclər üçün Prezident mükafatı təsis edilmişdir.

Prezident İlham Əliyevin qayğısı sayəsində **ölkədə idman və bədən tərbiyəsi sahəsində sürətli inkişaf prosesi getmiş, böyük uğurlar əldə edilmişdir.** Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi, xeyli sayda idman qurğuları, stadionlar və digər idman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidən qurulmuşdur. Azərbaycan idmançıları ildən-ilə öz nəticələrini yaxşılaşdırır, yüksək nailiyyətlər əldə edirlər. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal (1 qızıl, 4 bürünc), 2008-ci il Pekin Olimpiadasında 6 medal (1 qızıl, 1 gümüş və 4 bürünc), 2012-ci il London Olimpiadasında 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc), 2016-cı il Rio-de-Janeyro Olimpiya Oyunlarında isə 18 medal (1 qızıl, 7 gümüş, 10 bürünc) qazanmışlar. Sonuncu Olimpiya oyunlarında qazanılmış medalların sayına görə Azərbaycan dünyada 14-cü, Avropada 7-ci, MDB ölkələri arasında 2-ci, müsəlman aləmində isə 1-ci olmuşdur.

2015-ci ildə **Azərbaycan tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmişdir.** 50 ölkəni təmsil edən 6 min idmançının iştirak etdiyi Oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. **2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında** isə Azərbaycan komanda hesabında 1-ci yerə çıxmışdır. 2016-cı ildən etibarən Bakıda hər il ümumi auditoriyası 500 milyon nəfərdən çox olan "Formula 1" yarışları təşkil edilir.

**Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını, çoxşaxəli islahatlar proqramını yaradıcılıqla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında keçid dövrünü başa vuran ilk ölkə olmuşdur.** Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda həyata keçirilən islahatlara yüksək qiymət vermişdir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, **Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə dünya miqyasında 35-ci, ümumi infrastrukturun inkişafına görə isə 26-cı yerdə qərarlaşmışdır (2017). Forumun "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında (2017) Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir.**

Əslində, Azərbaycana gələn hər bir kəs mötəbər beynəlxalq təşkilatların hesabat və reytinqləri ilə tanış olmasa belə, təkcə paytaxt Bakı şəhərinə nəzər salmaqla son 15 ildə böyük bir sıçrayışın baş verdiyinə əmin ola bilər. **Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf konsepsiyasına əsasən 2003-2018-ci illərdə həyata keçirilən abadlıq və quruculuq işləri sayəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə, regionun biznes və mədəniyyət mərkəzinə, cəlbedici turizm və istirahət məkanına çevrilmişdir.** Şəhərin tarixi görkəmi müasir və zövqlü tikililərlə tamamlanmış, Bakının yeni simvol və rəmzləri olan Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, "Alov qüllələri", "Baku Crystal Hall" və digər inşaat kompleksləri dünyanın memarlıq inciləri sırasına daxil olmuşdur. Şəhərin ictimai-mədəni və nəqliyyat-təsərrüfat infrastrukturu müasir tələblərə uyğunlaşdırılmış, yeni küçə, körpü və yol ötürücüləri tikilmiş, yaşıllıq və parklar salınmış, ekoloji şərait yaxşılaşdırılmış, dənizkənarı bulvar 3,5 kilometrdən 16 kilometrə qədər uzadılmışdır. Paytaxt ərazisindən çıxarılan sənaye müəssisələrinin yerində modern tipli şəhərsalma layihələri reallaşdırılmışdır.

**Dövlət və cəmiyyət həyatının bütün sahələrində fundamental dəyişikliklərin baş verdiyi ötən 15 il ərzində Azərbaycan xalqı həmişə öz liderinə güvənmiş, Ona ən güclü dayaq olmuşdur. Prezident İlham Əliyev respublikamızın sürətli inkişafından, qazanılan nailiyyətlərdən bəhs edərkən həmişə böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidarın birliyi dayanır. Şübhəsiz, bu cür qarşılıqlı inam şəraitində Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaqdır.**

**Əli Həsənov**
**Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor**

## Azərbaycanın müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib





Oktyabrın 12-də Özbəkistan Respublikasının paytaxtı Daşkənddə Müstəqil Dövlətlər Birliyi iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov iclasda iştirak edib.

İclasda müdafiə nazirləri cari hərbi əməkdaşlıq və qarşıda duran məsələləri müzakirə ediblər.

## Özbəkistan Prezidenti MDB iştirakçı-dövlətlərinin müdafiə nazirlərini qəbul edib



Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının Daşkənddə keçirilən 75-ci iclası çərçivəsində müdafiə nazirlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov da iştirak edib.

Özbəkistan Prezidenti qonaqları salamlayaraq bildirib ki, MDB iştirakçı-dövlətlərinin Müdafiə Nazirləri Şurasının iclası Daşkənddə birinci dəfədir keçirilir. Bu, onu göstərir ki, MDB-nin fəaliyyətində Özbəkistan yeni mərhələnin əsasını qoyub.

Dövlət başçısı bildirib ki, ötən il Özbəkistan MDB ölkələri ilə iqtisadiyyat, energetika, elm, innovasiya, cinayətkarlıqla mübarizə və digər sahələrdə fəal əməkdaşlıq edib.

Görüşdə MDB ölkələri arasında hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri müzakirə olunub. Bu sahədə ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, peşəkar hərbi kadrların hazırlanması məsələləri də diqqət mərkəzində olub.

Qəbulda beynəlxalq və regional məsələlər, təhlükəsizliyin və sabitliyin qorunması ətrafında da geniş fikir mübadiləsi aparılıb.

Çıxış edən nazirlər ölkələrinin dövlət başçılarının salamlarını və xoş arzularını Prezident Şavkat Mirziyoyevə çatdırıblar. Onlar Özbəkistanda bütün sahələrdə həyata keçirilən islahatları, həmçinin Silahlı Qüvvələrin modernləşdirilməsi, regionda təhlükəsizliyin, sabitliyin qorunmasını yüksək qiymətləndiriblər.

## Azərbaycanın mədəniyyət naziri: Bakı mədəniyyətlərarası dialoq siyasətini dəstəkləyir

Mərakeşin paytaxtı Rabatda Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə İslam Təşkilatının (ISESCO) 13-cü konfransı keçirilir. Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev konfransın işində iştirak edir.

Nazir TASS agentliyinə eksklüziv müsahibəsində bildirib ki, Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini hərtərəfli dəstəkləyir və həyata keçirir.

Ə.Qarayev qeyd edib ki, ölkəmizin siyasəti tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlib.

Müsahibədə deyilir: **"Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən ISESCO ilə əməkdaşlığa çox ciddi yanaşır və bu təşkilatın fəal iştirakçısıdır. Biz çoxlu konfranslar, "dəyirmi masa"lar keçirir, təhsil proqramlarını reallaşdırırıq. ISESCO-nun bundan əvvəlki, 12-ci Baş Konfransı 2015-ci ildə Bakıda keçirilib. Bugünkü hesabat məruzəsində və nümayəndələrin çıxışlarında qeyd edildiyi kimi, həmin konfrans uğurlu olub".**

Ə.Qarayev vurğulayıb: **"Bu gün Azərbaycan ISESCO-nun Baş Konfransının sədri səlahiyyətlərini təhvil verir, lakin fəal əməkdaşlığımız, əlbəttə, davam edəcək. Biz istəyirik ki, səsimiz eşidilsin, uğurlarımız hamıya məlum olsun. Təbii ki, biz sivilizasiyaların dialoqunun inkişafına, ümumbəşəri dəyərlər naminə İslam aləmi ilə Qərb dünyasının bir-birini daha yaxşı anlamasına yönəlmiş siyasətimizi davam etdirəcəyik".**

Onun sözlərinə görə, son üç ildə ISESCO-nun Baş Konfransına rəhbərlik edən Azərbaycan bir sıra iri tədbirlər keçirib. Nazir sözünə davam edərək deyib: **"Məsələn, 2017-ci ildə Bakıda çoxsaylı iştirakçıları olan IV İslam Həmrəylik Oyunları keçirilib. Mənim fikrimcə, bu Oyunlar çox uğurlu olub".**



Ə.Qarayev vurğulayıb: **"Azərbaycan mədəniyyətlərarası dialoq siyasətini də hərtərəfli dəstəkləyir və həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyev 2008-ci ildə mədəniyyətlərarası dialoq çərçivəsində Qərb və Şərq dünyası arasında əlaqələrin həyata keçirilməsi təşəbbüsünü irəli sürüb. Biz mədəniyyətin müxtəlif sahələrini təmsil edən təşkilatları mədəniyyətlərarası dialoq üzrə ümumdünya forumunun həmtəşkilatçıları kimi birləşdirməyə nail olduq. Tərəfdaşlarımızın sırasında ISESCO, Avropa Şurası, UNESCO, BMT Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı çıxış edirdi. Keçən ildən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı da tərəfdaşlara qoşulub.**

**Bu o deməkdir ki, Azərbaycanın tolerantlığa, müxtəlif milli və dini icmaların mədəni dəyərlərini anlamağa və onlara hörmət bəsləməyə yönəlmiş siyasəti sülh işinə və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə xidmət edir".**

Nazir deyib: **"2009-cu ildə ISESCO-nun qərarı ilə Bakı İslam Mədəniyyəti Paytaxtı elan edildi. 2018-ci ildə isə bu fəxri ada Azərbaycanın Naxçıvan şəhəri layiq görüldü. Bu, bizim üçün böyük hadisədir və Azərbaycan mədəniyyətinin səviyyəsini, onun müxtəlifliyini bütün dünyaya göstərmək imkanı verir.**

**İslam aləminin və Avropanın mədəni paytaxtları arasında mədəni dialoq təşəbbüsünü məhz Azərbaycan irəli sürüb. Bu, ölkələr arasında dostluq körpüləri qurmağa şərait yaradıb. Düşünürəm ki, bu, ən düzgün yoldur - mədəniyyət birləşdirməli və qovuşdurmalıdır".**

Nazir Azərbaycan mədəniyyətini fəal təbliğ edən, mədəniyyətlərarası proseslərin və mübadilələrin hərəkətverici qüvvəsi olan Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyevanın rolunu xüsusi qeyd edib.

Ə.Qarayev vurğulayıb: **"Azərbaycan əhalisinə tarixən xas olan dözümlülük və tolerantlıq keyfiyyətləri çoxəsrlik inkişaf dövrünü yaşayıb. Yəhudi və xristian icmaları dinc yanaşı yaşayır, bir-birinə hörmət bəsləyir. Biz insanlar arasında ünsiyyət məkanı olan mədəniyyətlərarası dialoq forumları, sivilizasiyalararası dialoq forumlar keçiririk. Buna görə də bu gün Azərbaycan ümumbəşəri dəyərlərin birləşdiricisi rolunu öz üzərinə götürə bilər".**

Nazir çıxışının sonunda deyib: **"Avropa ilə Asiyanın, Qərb və Şərq dünyasının qovuşuğunda yerləşən Azərbaycan özünün sülhyaratma, vasitəçilik və sivilizasiya imkanlarını təklif edən platforma ola bilər".**

# Doqquz ayın yekunları: nailiyyətlər və Prezidentin qarşıya qoyduğu vəzifələr

Oktyabrın 9-da Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası çox maraqlı məsələlərin müzakirəsi ilə keçib. Dövlət başçısı söylədiyi geniş nitqində keçən müddətdə əldə edilən nailiyyətləri ifadə edib. Onların müstəqil dövlət quruculuğunda oynadığı rol barədə lakonik və dəqiq fikir ifadə edən Prezident İlham Əliyev, eyni zamanda, qarşıda duran vəzifələrdən konkret istiqamətlər üzrə bəhs edib. Daxili və xarici siyasətdə üstünlük verilən məqamları vurğulayıb. Ölkə rəhbəri müstəqil dövlət quruculuğu işində daha inamlı və qətiyyətli irəliləməyin vacib olduğunu ayrıca qeyd edib. Əlamətdardır ki, iclasda dövlət başçısının qaldırdığı məsələlərə Nazirlər Kabineti çevik reaksiya verərək, qarşıda dayanan vəzifələrin icrası ilə bağlı mühüm qərar qəbul edib. Bu kimi məqamların üzərində geniş təhlili dayanmaq zərurətini hiss edirik.

## DÜŞÜNÜLMÜŞ SİYASƏTİN BƏHRƏLƏRİ: CARİ İLİN NAİLİYYƏTLƏRİ İŞIĞINDA

Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev dərin məzmunlu nitq söyləyib. Dövlət başçısı keçən müddət ərzində ölkədə əldə edilən nailiyyətləri və qarşıda duran vəzifələri dolğunluğu ilə izah edib. Prezident 2018-ci ili ölkəmiz üçün "uğurlu il" adlandırıb (bax: Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib / AZƏRTAC, 9 oktyabr 2018).

Bu tezisin arxasında cari ilin doqquz ayı ərzində ölkə həyatının bütün sahələrində qazanılan konkret uğurlar dayanır. Onun təməlində isə qarşıya qoyulan bütün vəzifələrin "uğurla və vaxtında icra edilməsi" durur (bax: əvvəlki mənbəyə). Bu aspekt əhəmiyyətlidir. Çünki postsovet məkanında hətta ən inkişaf etmiş dövlətlərdə belə Prezidentin qarşıya qoyduğu vəzifələr müəyyən faizlə icra edilir. Azərbaycanda isə Prezident tapşırıqlarına tam olaraq əməl edilir. Bu, bir tərəfdən, ölkə rəhbərinin düşünülmüş və əsaslı vəzifələr müəyyənləşdirməsi ilə şərtlənirsə, digər tərəfdən, Prezident İlham Əliyevin komandasının səmərəli fəaliyyət göstərdiyinin nümayişidir. Azərbaycan iqtidarı vahid komanda ilə faydalı fəaliyyət göstərir.

Bu baxımdan Azərbaycanın əmin-amanlıq, sabitlik və təhlükəsizlik şəraitində yaşaması cari ilin ən vacib nailiyyətləri sırasında yer almalıdır. Bütün dünyada risklərin, qeyri-müəyyənliyin, müxtəlif böhranların hökm sürdüyü bir mərhələdə Azərbaycanda sabitliyin və dayanıqlı inkişafın mövcud olması, təbii ki, çox sevindiricidir. Bununla bağlı dövlət başçısı dəyərli fikirlər ifadə edib. Prezident İlham Əliyev nitqində vurğulayıb: **"Bugünkü dünyada vəziyyəti nəzərə alsaq, deməliyik ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Azərbaycanda isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik qorunur, möhkəmlənir. Sabitliyin, uğurlu inkişafımızın təməlində bizim düşünülmüş siyasətimiz dayanır, eyni zamanda, xalq tərəfindən bizim siyasətimizə göstərilən dəstək dayanır"** (bax: əvvəlki mənbəyə).

Özü də bu cür vəziyyət dünya ilə bərabər Cənubi Qafqazda da geosiyasi situasiyanın daha da gərginləşməsi fonunda özünü göstərir. Hətta "yeni qarşıdurma, münaqişə ocaqları yaranır" (bax: əvvəlki mənbəyə). Bunun fonunda, təəssüf ki, əvvəlki illərdə yaranmış münaqişələr həll edilmir. Nəticədə, Azərbaycan özünü mümkün risklərdən qorumalıdır və qoruyur. Baxmayaraq ki, Azərbaycanda daxili risk mənbələri yoxdur, regional və dünya miqyasında cərəyan edən qeyri-müəyyən proseslər və müxtəlif təhdidlər güclü əks-tədbirlər görməyi tələb edir. Azərbaycan rəhbərliyi məhz bu cür strategiya ilə xalqın firavan həyatını təmin edir. Bu, şübhəsiz ki, dövlət başçısının daxili və xarici siyasət kursunu bir-biri ilə yüksək səviyyədə uyğunlaşdırması sayəsində mümkün olur. Bu ilin doqquz ayı ərzində həmin tezisi təsdiq edən çoxlu sayda hadisələr baş verib.

Həmin kontekstdə Prezident İlham Əliyev vurğulayıb: **"Bu istiqamətdə bir çox addımlar atılır, o cümlədən xarici siyasətlə bağlı addımlar. Deyə bilərəm ki, 2018-ci ildə Azərbaycanın beynəlxalq mövqeləri daha da möhkəmlənib. Mənim həmkarlarımla həm ikitərəfli, həm çoxtərəfli formatlarda bir çox görüşlərim olub. Doqquz ay ərzində mən 12 xarici səfər etmişəm və 15 dövlət və hökumət başçısı Azərbaycana səfərlər etmişdir. Bu, onu göstərir ki, Azərbaycanın çox çevik və çoxşaxəli xarici siyasəti vardır"** (bax: əvvəlki mənbəyə). Bəli, olduqca əhəmiyyətli məqamdır.

Azərbaycan Prezidenti cəmi doqquz ay müddətində 27 ölkənin dövlət və hökumət başçıları ilə dövlətçilik üçün vacib olan müzakirələr aparıb. Bu, istənilən siyasi lider üçün kifayət qədər gərgin və intensiv fəaliyyətdir. Ancaq Prezident İlham Əliyev daim böyük enerji və fəallıqla müzakirələr aparıb və konkret nəticələr əldə edib. Bu nəticələr sırasında siyasi, geosiyasi, iqtisadi, humanitar, nəqliyyat, hərbi, müdafiə və sair xarakterli faktorlar vardır. Deməli, dövlət başçısı keçən müddətdə sistemli və səmərəli fəaliyyət göstərib və bununla bütün ölkə üçün nümunə olub.

Müqayisə üçün deyək ki, Cənubi Qafqazın başqa heç bir dövlətinin başçısı bu səviyyədə fəallıq göstərə bilməyiblər. Məsələn, Ermənistan rəhbərliyi bir neçə ölkəyə səfər edib, lakin konkret bir müqavilə belə imzalanmayıb. Rəsmi İrəvan müxtəlif sahələri əhatə edə biləcək, regional önəm daşıyan, bölgədə sülhə və əməkdaşlığa xidmət göstərən bir dənə də olsun sənəd imzalaya bilməyib. Bunun fonunda Azərbaycan rəhbərliyinin bölgə və dünya üçün böyük əhəmiyyətə malik əməkdaşlıq müqavilələri imzalaması, hansı dövlətin müstəqil olduğunu və beynəlxalq miqyasda praktiki fəaliyyət göstərdiyini açıq təsdiq edir.

Prezident İlham Əliyev məsələnin bu tərəfinin səbəbini dəqiqliklə ifadə edib. Dövlət başçısı deyib: **"...Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınır və bizim sözümüzə inanırlar. Çünki sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur"** (bax: əvvəlki mənbəyə). Deməli, Azərbaycan əvvəlki illərdə olduğu kimi, bu ilin doqquz ayı ərzində də etibarlı tərəfdaş olaraq fəaliyyət göstərib. Ona inanırlar və onu sözübütöv partnyor kimi qəbul edirlər. Siyasi proseslərdə bu, olduqca əhəmiyyətli bir nəticədir.

## PREZİDENT İLHAM ƏLİYEV: QƏTİYYƏTLİ, MÜASİR VƏ MİLLİ MARAQLARA CAVAB VERƏN ADDIMLAR

Qısa müqayisələrdə fikrimizi əsaslandırmağa çalışaq. Azərbaycanda Prezident seçkisi ərəfəsi və sonrası bir sıra dairələr böyük hay-küy salmışdılar. Onlar bütün gücləri ilə dövlətimizi və ölkə rəhbərliyini qaralamağa cəhd göstərirdilər. Ancaq seçkidən sonra dünyanın ən qüdrətli dövlətləri həm qalib gələn Prezident İlham Əliyevi təbrik etdilər, həm də əməkdaşlıq təklif etdilər. Onların sırasında ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya kimi dövlətlər vardı. Və eyni zamanda, qısa müddətdə bu dövlətlərin hər biri ilə əməkdaşlıq sahəsində konkret addımlar atıldı. Etibarlı tərəfdaş




və sözübütöv olmaq bundan ibarətdir!

Məhz buna görədir ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin iclasında bəyan edib: **"Hesab edirəm ki, bu il qonşu ölkələrlə əlaqələrimiz yeni pilləyə qalxıbdır. Mənim qonşu ölkələrin dövlət, hökumət başçıları ilə çoxsaylı görüşlərim olub. Əldə edilmiş razılaşmalar həm ikitərəfli əlaqələrimizi möhkəmləndirir, eyni zamanda, regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına xidmət göstərir"** (bax: əvvəlki mənbəyə). Bundan başqa, rəsmi Bakı bu müddət ərzində müsəlman ölkələri ilə də əlaqələrini yeni səviyyəyə qaldırıb. Bu istiqamət xarici siyasətin prioriteti olaraq qalıb. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında (İƏT) fəallığını davam etdirib. O cümlədən bütün beynəlxalq təşkilatlarda İslam həmrəyliyini təbliğ edib. 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması bu baxımdan tamamilə məntiqi idi.

Müsəlman ölkələri də öz növbəsində Azərbaycanın bu fəallığına yüksək qiymət verir. Deməli, bütövlükdə İslam aləmində Azərbaycanın hörməti və siyasi çəkisi artır. Bunun təsdiqlərindən biri Bakı ilə yanaşı, Naxçıvanın da İslam Mədəniyyətinin paytaxtı elan edilməsidir. Prezident nitqində ayrıca vurğulayıb ki, bu istiqamətdə fəaliyyət davam etdiriləcək və müsəlman dövlətlərlə əməkdaşlıq yeni səviyyəyə yüksəldiləcək.

Bu ilin doqquz ayı ərzində görülən işlərdən bəhs edərkən mütləq Azərbaycanın iştirakı ilə baş tutan bir neçə önəmli beynəlxalq hadisəni də vurğulamaq gərəkdir. Onların sırasında, heç şübhəsiz, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi ayrıca yer tutur. Bununla bağlı Prezident xüsusi fikir bildirib. Dövlət başçısı ifadə edib: **"Hesab edirəm ki, bu, tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Xəzəryanı beş ölkə uzun danışıqlardan sonra razılığa gəlibdir. Yəni, bu, onu göstərir ki, bütün ölkələrin maraqları bu Konvensiyada təmin edilib. Hesab edirəm ki, bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir"** (bax: əvvəlki mənbəyə).

Bu problemin həll edilməsinin böyük əhəmiyyəti onun tarixçəsindən aydın görünür. Xəzər hövzəsinin bir sıra dövlətləri çalışırdılar ki, daha çox fayda götürsünlər. Azərbaycan isə milli maraqlarından çıxış edərək, müasir dövrün tələblərinə və tarixi reallığa uyğun, beynəlxalq hüquq çərçivəsində məsələnin həllinə çalışırdı. Sonda məhz bu cür də həll öz yerini tutdu. Xəzərin hüquqi statusu ilə bağlı qəbul edilən Konvensiyanın müddəaları Azərbaycanın milli maraqlarına tam uyğundur, eyni zamanda, digər Xəzəryanı dövlətlərin maraqlarına cavab verir.

Digər tərəfdən, Konvensiyanın qəbul edilməsi dünya miqyasında region dövlətləri ilə əməkdaşlıq etməyə can atan ölkələrin sayını artırdı. Çünki artıq hüquqi baza vardır və Xəzərdə əməkdaşlığı çəkinmədən qurmaq olar. Bu səbəbdəndir ki, Azərbaycan Prezidenti ifadə edir ki, bu, "çox ciddi hüquqi sənəddir". Sözsüz ki, Azərbaycan müstəqil dövlət olaraq bu imkandan maksimum dərəcədə həm özünün, həm də bütövlükdə regionun maraqlarına uyğun yararlanacaqdır. Azərbaycanın beynəlxalq əlaqələri daha da inkişaf edəcəkdir.

Ölkə rəhbəri digər vacib beynəlxalq hadisə kimi Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransının keçirilməsini göstərib. Gələn il bu təşkilatın zirvə görüşü Bakıda keçiriləcək. Qoşulmama Hərəkatı beynəlxalq təhlükəsizlik sisteminin formalaşmasında mühüm rol oynayır. Onun çox sayda üzvü vardır və fəaliyyətində beynəlxalq gərginliyin azaldılması xətti üstünlük təşkil edir. Azərbaycan gələn ildən bu təşkilatda sədrlik edəcək ki, ekspertlər bunu çox müsbət hal hesab edirlər. Çünki Azərbaycan sülhsevər, əməkdaşlığa can atan, beynəlxalq hüquqa tam əməl edən və sabit inkişafa malik ölkə kimi həmin quruma böyük töhfə verə bilər.

Prezident doqquz ayın mühüm beynəlxalq hadisəsi kimi ölkəmizin Avropa İttifaqı ilə münasibətlərində baş verən yeniliyi də vurğulayıb. Bunun üçün tam əsas vardır. Çünki Azərbaycan postsovet məkanında yeganə dövlətdir ki, Aİ ilə münasibətlərini tam suverenlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzrə qurur. Prezident İlham Əliyev nitqində həmin kontekstdə xüsusi ifadə edib: **"Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır və hesab edirəm ki, bu, çox önəmli addımdır, önəmli sənəddir"** (bax: əvvəlki mənbəyə).

Məsələ ondan ibarətdir ki, həmin sənəddə Azərbaycan üçün böyük əhəmiyyət daşıyan bir sıra məqamlar öz əksini tapıb. Onların sırasında Aİ ilə Azərbaycanın əməkdaşlığının qarşılıqlı faydalılıq prinsipinə əsaslanması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünün Avropa İttifaqı tərəfindən dəstəklənməsi ayrıca əhəmiyyət kəsb edir.

Çox vacib məqamdır ki, sənəddə ilk dəfə olaraq Aİ bir təşkilat kimi Azərbaycanın sərhədlərinin toxunulmazlığını və ərazi bütövlüyünü rəsmi olaraq ifadə edib. Ekspertlər bunu Azərbaycanın xarici siyasətinin çox böyük uğurlarından biri kimi qiymətləndirirlər. Bu bağlılıqda NATO-nun zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstəyin ifadə edildiyi punkt da dövlətimiz üçün əhəmiyyəti olan beynəlxalq hadisə kimi vurğulanmalıdır. Hər iki sənəddə yer almış müddəaları ümumiləşdirərək, Prezident İlham Əliyev nitqində ayrıca ifadə edib: **"Bütün bu sənədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir. Onsuz da münaqişənin həlli üçün kifayət qədər geniş hüquqi baza vardır, eyni zamanda, yeni addımlar, xüsusilə ölkəmizin suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələri, sazişlərdə əks olunan müddəalar bizim mövqeyimizi daha da möhkəmləndirir"** (bax: əvvəlki mənbəyə).

Həmin bağlılıqda dövlət başçısının Ermənistan tərəfinin ciddi cəhdlər göstərməsinə rəğmən, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların formatının dəyişməz qalmasını xüsusi qeyd etməsi təsadüfi deyil. Çünki rəsmi İrəvan son zamanlar bu məqamı çox qabardır. Ermənistan rəhbərliyi Dağlıq Qarabağdakı separatçı-terrorçuların danışıqlarda "söz sahibi" olmalarından dəm vurur. Ancaq bunu nə Azərbaycan, nə də vasitəçilər qəbul etmirlər. Buna görə də **"danışıqlar Ermənistan və Azərbaycan arasında aparılıb, aparılır və aparılmalıdır"** (bax: əvvəlki mənbəyə). Və Azərbaycanın ərazi bütövlüyü danışıqların predmeti olmayacaq.

Prezident İlham Əliyev bütün bunlarla yanaşı, Azərbaycanın öz hərbi qüdrətini daim artırmaqda davam edəcəyini qürurla vurğulayıb. İndi ordumuz dünyanın 50 ən güclü ordusu sırasındadır. Ölkə rəhbərliyi ordu quruculuğunda lazımi addımlar atmaqdadır. Həm hərbi texnikanın istehsalı, həm kənardan müasir silahların alınması, həm də silahlı qüvvələrin döyüş qabiliyyətinin mütəmadi artırılması onu göstərir ki, Azərbaycan ordusu Ali Baş Komandanın qarşıya qoyduğu hər bir tapşırığı yerinə yetirməyə hazırdır.

## DAVAMLI VƏ UĞURLU İNKİŞAF NAMİNƏ: İQTİSADİ YÜKSƏLİŞ YOLUNDA

Təbii ki, davamlı və uğurlu inkişaf üçün iqtisadi sistemin inkişafı çox vacibdir. Prezident İlham Əliyev bu məqam üzərində nitqində geniş dayanıb. Dövlət başçısı vurğulayıb ki, bu istiqamətdə ardıcıl addımlar atılır. Güclü iqtisadi imkanlar olmadan heç bir planı reallaşdırmaq mümkün olmazdı. Təsəvvür edək ki, Azərbaycan böyük həcmdə sərmayə tələb edən iqtisadi, enerji, nəqliyyat layihələrinin təşəbbüskarı və aktiv iştirakçısıdır. Bu yükü uğurla daşımağın yolu iqtisadiyyatı, maliyyə imkanlarını daim artırmaqdan keçir. Bu barədə ölkə rəhbəri konkret mövqeyini aşağıdakı kimi ifadə edib: **"Əgər bizim güclü iqtisadi imkanlarımız olmasaydı, heç bir planımızı icra etmək mümkün olmazdı. Bizim iqtisadiyyatımız siyasi maraqlarımızı təmin edir. İqtisadi müstəqillik imkan verir ki, biz beynəlxalq müstəvidə də müstəqil siyasət aparaq. Əgər biz iqtisadi cəhətdən kimdənsə asılı olsaydıq, belə imkanlar məhdud ola bilərdi. Biz isə iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Hesab edirəm ki, bu, bizim tarixi nailiyyətimizdir"** (bax: əvvəlki mənbəyə).

Buna görədir ki, 2018-ci ildə iqtisadi sahədə islahatların dərinləşməsi işində çox önəmli addımlar atılıb. Cari ilin doqquz ayı ərzində əldə edilən göstəricilər bunu tam təsdiq edir. Belə ki, keçən müddətdə ümumi daxili məhsul 0,8 faiz artıb. Qeyri-neft sektorunda artım 1 faiz, sənaye istehsalında 2 faiz, qeyri-neft sənayesində isə 10,8 faiz təşkil edib. Kənd təsərrüfatı bu müddətdə 4,3 faiz artıb. Əhalinin gəlirləri 9,5 faiz artıbsa, inflyasiya cəmi 2,6 faiz olub. Keçən doqquz ayda ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulub. Valyuta ehtiyatlarımız isə 45 milyard ABŞ dollarına çatıb. Doqquz ayda xarici ticarət dövriyyəsi və ixrac 37 faiz artıb (bax: əvvəlki mənbəyə).

Ötən doqquz ayda çox əhəmiyyətli istehsal və nəqliyyat-logistika obyektləri istifadəyə verilib. O sırada polipropilen zavodunun açılışını dövlət başçısı xüsusi qeyd edib. "SOCAR Polymer"lə birgə bu zavoda qoyulan sərmayə 800 milyon ABŞ dolları təşkil edir. Bundan başqa, yaxın gələcəkdə istifadəyə veriləcək Azərbaycanın Türkiyədəki "Star" neftayırma zavoduna qoyulan sərmayə - 6 milyard dollar təşkil edir. Dövlət başçısı istifadəyə verilən mühüm obyektlər sırasında Ələt Beynəlxalq Dəniz Ticarət Limanını xüsusi vurğulayıb. Bu liman may ayında istifadəyə verilib. O, Xəzər dənizinin ən böyük limanıdır və geniş imkanlara malikdir. Prezident İlham Əliyev onu "tarixi layihə" adlandırıb.

Yuxarıda vurğulanan uğurlarla yanaşı, 2018-ci il Azərbaycanın enerji siyasətinin inkişafı üçün də əlamətdar olub. May ayında Bakıda Cənub Qaz Dəhlizinin rəsmi açılışı oldu. İyun ayında Türkiyədə TANAP-ın açılış törəni keçirildi. 2018-ci il həm də "Şahdəniz-2"dən qazın gəlməsi ilə yadda qalacaq. Prezident Cənub Qaz Dəhlizinin əhəmiyyətindən danışarkən vurğulayıb ki, **"Cənub Qaz Dəhlizinin uğurla başa çatması bizim üçün yeni imkanlar, yeni üfüqlər açacaq. Biz bir çox ölkələrin bazarlarına öz resurslarımızla çıxacağıq"** (bax: əvvəlki mənbəyə). Doğrudan da, hər bir müstəqil dövlətin həsəd apara biləcəyi işlərdir. Buraya Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ilə bağlı atdığı addımları da mütləq əlavə etmək gərəkdir.

Beləliklə, Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqi əyani surətdə göstərir ki, Azərbaycan sürətli inkişafını davam etdirir və o, yeni zirvələr fəth etməyə hazırdır. O da vacib məqamdır ki, Nazirlər Kabineti tez bir müddətdə dövlət başçısının nitqi əsasında qarşıda duran vəzifələri müzakirə edərək, onları həyata keçirmək əzmini nümayiş etdirib. Baş nazir Novruz Məmmədov həmin məsələyə həsr edilmiş Nazirlər Kabineti Aparatının iclasında Prezidentin nitqində vurğulanan məqamlardan bəhs edərək, ayrıca vurğulayıb ki, **"...iclasda Prezident İlham Əliyevin qeyd etdiyi kimi, beynəlxalq mövqeləri daha da möhkəmlənən Azərbaycan regionda sabitliyin, təhlükəsizliyin, əməkdaşlığın inkişafına töhfə verir. Eyni zamanda, ölkəmizdə iqtisadiyyat sahəsində islahatların dərinləşməsi, iqtisadiyyatın rəqabətliliyinin artırılması üçün önəmli addımlar atılır. Xüsusən sənaye istehsalında, qeyri-neft sektorunda mühüm işlər görülür. Ölkədə makroiqtisadi vəziyyət sabitdir, investisiya və infrastruktur layihələri ardıcıl icra edilir, əhalinin aztəminatlı hissəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemləri daim dövlətin diqqət mərkəzindədir. Dövlətimizin başçısının dediyi kimi, bu il Cənub Qaz Dəhlizinin, TANAP layihəsinin açılışları böyük nailiyyətlərdir. Bu yaxınlarda "Azerspace-2" peykinin orbitə çıxarılması, həmçinin Sumqayıtda, Mingəçevirdə, Masallıda Sənaye parklarının yaradılması uğurlu işlərimizdəndir. İnfrastruktur layihələri ilə bağlı nəzərdə tutulan bütün məsələlər öz müsbət həllini tapır. Kənd təsərrüfatının inkişafına, bölgələrdə məşğulluğun artırılmasına dövlət qayğısı da öz yüksək səmərəsini göstərməkdədir..."** (bax: Baş nazir Novruz Məmmədov Nazirlər Kabineti Aparatının iclasını keçirib / AZƏRTAC, 11 oktyabr 2018).

Baş nazir Prezident İlham Əliyevin nitqində qaldırdığı məsələlərin geniş şərhini verdikdən sonra Nazirlər Kabineti qarşısında duran vəzifələri ümumiləşdirib və onların icrası üçün uyğun tapşırıqlarını verib.

**Kamal Adıgözəlov**

**Newtimes.az**

# Milli Məclisin növbəti iclası keçirilib

## İclasda bir sıra qanunlara dəyişikliklər edilib



Oktyabrın 12-də Milli Məclisin növbəti iclası keçirilib. Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov iclasın gündəliyi haqqında məlumat verib. Əvvəlcə, millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər.

Milli Məclisin deputatı Sevinc Hüseynova çıxışında deyib ki, hazırda Azərbaycan-Rusiya münasibətləri ən yüksək səviyyədədir. Azərbaycan Prezidenti cənab İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin son dövrlər bu istiqamətdə gördükləri işlər münasibətlərimizi daha da dərinləşdirib. S.Hüseynova bildirib ki, hazırda parlamentlərarası münasibətlərimiz də inkişaf etməkdədir. Amma təəssüf edirik ki, 7 oktyabrda Azərbaycanın işğal olunmuş ərazisi olan Dağlıq Qarabağa qanunsuz səfər edən bir qrup rusiyalı qadın nümayəndələr arasında Rusiya Dövlət Dumasının Beynəlxalq komitəsinin sədrinin birinci müavini Svetlana Jurova da olub. Rusiyalı deputatın Dağlıq Qarabağa qanunsuz səfəri iki dövlət arasında münasibətlərin ruhuna ziddir: **"Onlar öz səfərlərini "qadınlar sülh naminə" adlandırırlar. Amma bütün dünya ictimaiyyəti bilir ki, Dağlıq Qarabağ münaqişəsini Ermənistan separatçıları başlayıb. Yəqin Svetlana Jurovaya məlum deyil ki, təkcə Xocalı soyqırımında ermənilər tərəfindən 106 qadın və 63 uşaq qətlə yetirilib. Qarabağ müharibəsi zamanı erməni separatçıları tərəfindən qətlə yetirilmiş insanlar arasında yalnız azərbaycanlı deyil, həm də rus millətinin nümayəndələri**



***Ziyafət Əsgərov:***
*Yeni nəsil şəxsiyyət vəsiqələrinin 15 yaşdan verilməsi nəzərə alınaraq ilkin hərbi qeydiyyatın da 15 yaşdan aparılması nəzərdə tutulur*



***Sevinc Hüseynova:***
*Rusiyalı deputatın Dağlıq Qarabağa qanunsuz səfəri iki dövlət arasında münasibətlərin ruhuna ziddir*

**də var. Onlardan 4-nün - Azərbaycanın Milli Qəhrəmanı - Yuri Kovalyov, İqor Makeev, Yevqeni Karlov, Viktor Seryoqinin adlarını çəkmək kifayət edər. Bu cür hərəkətlərlə erməni terrorçuları onlarla rus analarını da gözüyaşlı qoymuşlar. Svetlana Jurovanın bu aksiyaya qoşulması Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçi ölkə kimi mövqeyi və rolu haqda Azərbaycan ictimaiyyətində xoşagəlməz təsəvvür yarada bilər. Təəssüf doğurur ki, Rusiya qadınlarının bu qrupu yəqin problemin tək hüquqi deyil, həm də əxlaqi komponentini anlamadan könüllü və ya könülsüz bu aksiyaya qoşulublar və bununla da bütün xeyriyyə fondlarının fəalları üçün əsas sayılan "zərər vermə" prinsipini pozublar. Mən Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü kimi rusiyalı həmkarlarıma müraciət edərək onları bu cür qanunsuz səfərlərdən çəkinməyə çağırıram".**

Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əli Hüseynli bildirib ki, Azərbaycan-Rusiya parlamentlərarası əlaqələr üzrə işçi qrupu olaraq Rusiya Federal Məclisi Dövlət Dumasının sədri Vyaçeslav Volodinə, eyni zamanda digər komitələrə ciddi, kəskin arqumentlərlə müraciət hazırlanıb. **"Bu müraciəti həm mən, həm də Azərbaycanda Rus İcmasının sədri Mixail Zabelin imzalayacaq. Biz buna münasibət bildirmək istəməzdik, amma Rusiya Dövlət Dumasının xarici əlaqələr komitəsinin sədrinin birinci müavininin səfəri bizi buna vadar etdi. O, Rusiya hakim partiyasının üzvü olduğuna görə həmin partiyaya da müraciət etmişik. Əmin ola bilərsiniz ki, bu məsələ diqqət mərkəzindədir. Müraciətimizdə qeyd etmişik ki, Rusiya Federal Məclisi Dövlət Dumasının rəhbərliyi üzvlərə prosedur qaydada xəbərdarlıq etsin ki, işğal olunmuş ərazilərə getməsinlər"**, - deyə Ə. Hüseynli vurğulayıb.

**"Xarici siyasət məsələlərində diqqətli olmalıyıq. Ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qonşu ölkələrlə pozulmuş münasibətləri bərpa etdi. Hazırda bu siyasət uğurla, balanslaşdırılmış şəkildə davam etdirilir".** Bu fikirləri isə YAP İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov çıxışı zamanı deyib. S.Novruzov bildirib ki, son vaxtlar dünyanın aparıcı ölkələrinin rəhbərləri Azərbaycana səfər edib, səfər zamanı mühüm sənədlər imzalanıb. Eləcə də ölkəmizdə bir sıra mötəbər beynəlxalq tədbirlər keçirilib. Onun sözlərinə görə, bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu daha da gücləndirən amillərdir: **"Amma Azərbaycanın inkişafını istəməyən qüvvələr, erməni lobbisi ölkəmizin imicinə kölgə salmağa çalışır. Bu dairələr bizim hansısa fikirlərimizdən sui-istifadə edərək xarici əlaqələrimizə zərbə vurmağa çalışırlar. Ona görə də, belə bir həssas dövrdə diqqətli olmalıyıq, dövlətimizin xarici siyasətinə xələl gətirəcək fikirlərə yer verməməliyik"**, - deyə YAP İcra katibinin müavini vurğulayıb.

Millət vəkili Elman Nəsirov isə Ermənistanın paytaxtı İrəvanda keçirilən Beynəlxalq Frankofoniya Təşkilatının sammitində ermənilərin təxribatçı əməllərinə diqqət çəkib. Onun sözlərinə görə, bu tədbir vasitəsilə işğalçı ölkə qondarma "DQR"i təbliğ etməyə çalışır: **"Ermənistan rəhbərliyi davranışları ilə münaqişənin nizamlanması prosesinə zərbə vurur".**

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya qanununun layihəsi ikinci oxunuşda qəbul edilib. Eyni zamanda, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında", "Rəsmi statistika haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlara dəyişikliklər edilib.



***Əli Hüseynli:***
*Rusiyalı deputatın Dağlıq Qarabağa qanunsuz səfəri ilə bağlı Dövlət Dumasına müraciət ediləcək*

Bundan əlavə iclasda Cəzaların İcrası, Cinayət, İnzibati Xətalar, Vergi, Gömrük, Mülki məcəllələrdə dəyişiklik edilməsi haqqında qanun layihələri qəbul olunub.

Həmçinin "Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv kəşfiyyat blokunun kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə BP EKSPLOREYŞN (AZƏRBAYCAN) LİMİTED şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Sazişin qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə" qanun layihəsi qəbul olunub.

Eyni zamanda, millət vəkilləri bır sıra beynəlxalq, dövlətlərarası sənədləri təsdiqləyiblər. Belə ki, "Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi haqqında", "Beynəlxalq Mülki Aviasiya haqqında Konvensiyaya dəyişikliklərə dair protokolların təsdiq edilməsi barədə", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında beynəlxalq avtomobil daşımaları haqqında", "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında bitki karantini və mühafizə sahəsində əməkdaşlıq haqqında" sazişlərin təsdiq edilməsi məsələsinə baxılıb.

İclasda həmçinin "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda və "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsi məsələsinə baxılıb. Milli Məclis sədrinin birinci müavini, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bu barədə məlumat verib. Əvvəlcə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Azərbaycan Respublikası Konstitusiyasının 9-cu maddəsinin birinci hissəsində qeyd olunur ki, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. Nəzərə alınmalıdır ki, artıq həm Azərbaycan Ordusu, həm də başqa silahlı birləşmələr Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin tərkib hissəsini təşkil edir. Belə olan halda, çoxsaylı qanunvericilik aktlarında istifadə olunan "Silahlı Qüvvələr və başqa silahlı birləşmələr" sözlərinə ehtiyac qalmır.

Bildirilib ki, layihədə Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən (Azərbaycan Ordusu və siyahısı Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə müəyyən ediləcək başqa silahlı birləşmələr) başqa hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlar) hərbi xidmət keçən hərbi qulluqçuların statusu ilə bağlı təkliflər də mövcuddur.



***Siyavuş Novruzov:***
*Xarici siyasət məsələlərində diqqətli olmalıyıq*

Diqqətə çatdırılıb ki, artıq cari il sentyabrın 1-dən tətbiqinə başlanılmış yeni nəsil şəxsiyyət vəsiqələrinin 15 yaşdan verilməsi nəzərə alınaraq təcrübə baş verə biləcək uyğunsuzluqların qarşısının alınması məqsədilə ilkin hərbi qeydiyyatın da 15 yaşdan aparılması nəzərdə tutulur.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda nəzərdə tutulan daha bir dəyişikliyə əsasən hərbi qulluqçular və hərbi vəzifəlilər (əsgər, matros hərbi rütbəsinə malik olanlar istisna olmaq) ağır və ya xüsusilə ağır cinayət törətməyə görə məhkum olunduqda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq onlara verilmiş hərbi rütbədən məhrum edilərək əsgər (matros) rütbəsinə endirilə bilər.

İclasda həmçinin Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə qanun layihəsi haqqında da məlumat verilib. Dəyişikliyə əsasən, törətdiyi cinayətə görə hərbi rütbədən məhrum edilməklə məhkum olunmuş hərbi qulluqçular məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün surəti icra olunması üçün hərbi hissəyə daxil olduğu vaxtdan, ali hərbi rütbədən məhrumetmə hallarında isə bu barədə müvafiq icra hakimiyyəti orqanının sərəncamı qüvvəyə mindiyi gündən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının siyahısından çıxarılır.

Hər iki qanundakı dəyişikliklər "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası ilə əlaqədar təklif edilir. Sərəncamdan irəli gələrək cəza siyasətinin humanistləşdirilməsi, habelə qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Məcəllənin müvafiq maddələrində dəyişikliklər nəzərdə tutan qanun layihəsi hazırlanıb. Mövcud dəyişikliklər "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli Qanununa uyğunlaşdırılma məqsədi daşıyır.

İclasda həmçinin "Vəkillik və vəkillik fəaliyyəti haqqında" qanuna dəyişikliklər edilməsi məsələsi müzakirə olunub. Məsələ ilə bağlı çıxış edən parlamentin komitə sədri Siyavuş Novruzov bildirib ki, hər bir vətəndaşa hüquqi yardım göstərilməsi zəruridir. Ona görə də, vəkillik sistemi, onların fəaliyyəti təkmilləşdirilməlidir. Bunun yeni mexanizmlərinin yaradılmasının vacib olduğunu deyən millət vəkili bildirib ki, vəkillərin sayı artırılmalıdır. **"Amma bir məsələ də var ki, rüşvət aldığına görə və digər qanuni səbəblərlə vəkillikdən uzaqlaşdırılan bəzi şəxslər qeyri-hökumət təşkilatı yaradaraq "hüquq müdafiəçisi"nə çevrilirlər. Belə hallara yol verilməməlidir"**, - deyə S.Novruzov vurğulayıb.



***Elman Nəsirov:***
*Ermənistan rəhbərliyi davranışları ilə münaqişənin nizamlanması prosesinə zərbə vurur*

Millət vəkili həmçinin bəzi tikinti şirkətlərinin vətəndaşları aldatdıqlarını deyib: **"Bəzi tikinti şirkətləri var ki, bir mənzili 5-6 nəfərə satır. İnsanlar da belə hallardan əziyyət çəkir, məhkəmələrə düşməli olurlar. Fikrimcə, elə qanuni tədbirlər görülməlidir ki, vətəndaşların hüquqları tam təmin olunsun".**

S.Novruzov çıxışında Milli Məclisin medalının təsis olunmasını da təklif edib.

Qeyd edək ki, günün ikinci yarısında da millət vəkilləri bır sıra qanunlara dəyişikliklər ediblər.

**Nardar BAYRAMLI**

# Dəmir yolu işçilərinin peşə bayramı günü qeyd olunub





"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətində 13 oktyabr dəmir yolu işçilərinin peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaq keçirilib.

Dəmiryolçular öncə Fəxri Xiyabanda Ulu öndər Heydər Əliyevin, görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın, Şəhidlər Xiyabanında uyuyan şəhidlərimizin məzarlarını ziyarət ediblər.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "Azərbaycan Dəmir Yollan" QSC-də keçirilən tədbirdə QSC-nin sədri Cavid Qurbanov tədbir iştirakçılarını dəmir yolu işçilərinin peşə bayramı günü münasibətilə təbrik edib.

Sonra "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin bir qrup əməkdaşının ali dövlət mükafatları ilə təltif edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar oxunub.

Cavid Qurbanov çıxışına davam edərək bildirib ki, Azərbaycanda dəmir yolunun təməli hələ 1878-ci ildə qoyulub və inşası 20 yanvar 1880-ci ildə başa çatıb. Həmin yol uzunluğu cəmi 20 kilometr olan Bakı-Suraxanı-Sabunçu dəmir yolundan ibarət idi. Həmin tarixi dövrdən başlayaraq dəmir yolu yük daşınmasına olan tələbatın artdığını nəzərə olaraq inkişaf edib və təkmilləşib.

Uzun müddət Zaqafqaziya dəmir yolunun tərkibində Bakı hissəsi kimi fəaliyyət göstərən Azərbaycan Dəmir Yolu 1955-ci il oktyabrın 3-də SSRİ Nazirlər Sovetinin 1773 saylı qərarı ilə SSRİ Yollar müstəqil dəmir yolu elan olunmuşdu. Azərbaycan SSR Nazirlər Sovetinin 13 oktyabr 1955-ci il 717 saylı qərarı ilə Azərbaycan dəmir yolu SSRİ Yollar Nazirliyinin tərkibində müstəqil dəmir yolu kimi fəaliyyətini davam etdirib. Möhtərəm Prezidentimiz İlham Əliyev dəmir yolu işçilərinin peşə bayramı gününü təsis edərkən məhz bu tarixi əsas götürüb, 2005-ci il oktyabrın 7-də "Dəmir yolu işçilərinin peşə bayramının təsis edilməsi haqqında" Sərəncam imzalayıb.

138 illik tarixə malik olan Azərbaycan polad magistralı çox əzəmətli fəaliyyət yolu keçib. İstər çar Rusiyası, istərsə də Sovet hakimiyyəti dövründə Azərbaycan dəmir yolu daima inkişafda olub və Ümummilli lider Heydər Əliyevin qayğı və diqqəti sayəsində keçən əsrin 70-90-cı illərində öz tərəqqisinin zirvəsinə çatıb. 1969-2003-cü illəri Azərbaycan Dövlət Dəmir Yolunun texniki tərəqqi və hərtərəfli inkişaf dövrü adlandırmaq olar. Məhz bu illərdə istehsalatda əsas fəaliyyətlə yanaşı 14300 texniki yeniləşmə metodları tətbiq edilib və bunlar dəmir yolunun bütün sahələrini əhatə edib.

Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan Azərbaycan dəmir yollarının inkişafı siyasəti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmiz beynəlxalq və regional nəqliyyat layihələrinin reallaşması prosesində aktiv iştirak edir.

Sonra bir qrup dəmiryolçuya yeni mənzillərin açarları, "Fəxrı dəmiryolçu" döş nişanı və bayram hədiyyələri təqdim olunub.

# Hikmət Hacıyev: Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri cəfəngiyatdır

Ermənistan rəhbərliyinin Ermənistan-Azərbaycan münaqişəsinə insan hüquqları donu geyindirməsi cəhdləri və Azərbaycanın guya erməni əhali olmadan əraziləri tələb etməsi barədə iddiaları tamamilə əsassızdır və cəfəngiyatdır.

Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Hikmət Hacıyev deyib.

Hikmət Hacıyev bildirib ki, Ermənistan BMT Nizamnaməsinə zidd olaraq, gücdən istifadə etməklə Azərbaycanın ərazilərini, o cümlədən Dağlıq Qarabağ bölgəsini və yeddi ətraf rayonu işğal edib və həmin ərazilərdə qondarma separatçı rejim yaradıb. Ermənistan Azərbaycana qarşı təcavüzünün tərkib hissəsi olaraq, beynəlxalq humanitar hüququn kobud şəkildə pozulması ilə müşayiət olunan çoxsaylı hərbi cinayətlər, insanlıq əleyhinə cinayət əməlləri törədib.

İşğal edilmiş Dağlıq Qarabağın azərbaycanlı icmasına və ətraf rayonların sakinlərinə qarşı qanlı etnik təmizləmə törətməklə Ermənistan yerli azərbaycanlı əhali olmadan həmin əraziləri qanunsuz yolla ilhaq etmək kimi məqsədlər güddüyünü açıq şəkildə nümayiş etdirir.

Bir milyondan artıq azərbaycanlı məcburi köçkün və qaçqının ən ümdə hüquqlarını kobud şəkildə pozduğu halda, Ermənistanın insan hüquqlarından danışması hər hansı siyasi, hüquqi və mənəvi çərçivəyə sığmır.

Bu siyasətin davamı olaraq, Ermənistan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar etməyə çalışır. Həmçinin hər bir vəchlə Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və azərbaycanlı icmaları arasında dialoqun yaradılmasına imkan vermir.



Hikmət Hacıyev qeyd edib ki, fundamental insan hüquq və azadlıqları universal xarakter daşıyır və bütün insanlığa şamil olunaraq bərabər əsasda və ayrı-seçkilik olmadan tətbiq olunmalıdır. 1993-cü il Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında təsbit olunduğu kimi, "bütün insan hüquqları universaldır, ayrılmazdır, qarşılıqlı şəkildə asılı və bağlıdır". İnsan hüquqları üzrə beynəlxalq sənədlərdə aydın şəkildə təsbit olunub ki, başqalarının hüquqlarının pozulması halında heç bir hüquq və azadlıq ifadə oluna bilməz.

Ermənistanın bu cür iddiaları işğal siyasətini gizlətmək, real vəziyyət barədə qeyri-həqiqi təəssürat yaratmaq və beynəlxalq ictimaiyyəti aldadaraq, münaqişənin əsasını təşkil edən Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazilərinin hərbi işğalı faktından diqqəti yayındırmaq cəhdlərindən başqa bir şey deyil.

Ermənistan başa düşməlidir ki, hərbi təcavüz və qanlı etnik təmizləmə və insan hüquqlarının kütləvi şəkildə və kobud pozulması ilə müşayiət olunan vəziyyət heç vaxt legitim qəbul oluna bilməz. Ona görə də beynəlxalq ictimaiyyət yekdilliklə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini tanıyır və dəstəkləyir.

İşğalçılıq siyasətinə son qoymadan və beynəlxalq hüquqi öhdəlikləri ni yerinə yetirmədən Ermənistanın demokratik və sivil cəmiyyət qurmaq barədə iddiaları sözdən başqa bir şey deyil.

Monoetnik dövlət olan Ermənistandan fərqli olaraq, Azərbaycan multikultural və inklüziv cəmiyyətə malik dövlətdir. Müxtəlif etnik və dini icmalar Azərbaycanda əsrlər boyu sülh şəraitində birgə yaşayırlar. Bu gün dövlət siyasəti ilə bu ənənələr daha da gücləndirilir.

Prezident Administrasiyasının rəsmisi vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması ilə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının sülh şəraitində birgə yaşayışı üçün imkanlar yarana bilər. Nəticə etibarilə də regionda davamlı sülh, sabitlik və təhlükəsizlik təmin olunar.

# Azərbaycan möhkəm ictimai-siyasi sabitlik əmsalına görə postsovet məkanında birinci yerdədir

*Cənab İlham Əliyev Özünün 15 illik prezidentliyi dövründə Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlədib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin edib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olub*

Yüksək iqtisadi inkişafa malik, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanda bütün sahələrdə uğurlar əldə edilib. Bunun nəticəsidir ki, bölgənin əsas iqtisadi-siyasi aktoru sayılan Azərbaycan istər daxili sabitliyinə, istərsə də beynəlxalq nüfuzuna görə seçilir. Vurğulanmalıdır ki, ölkəmizdə vətəndaşların rifah halının yaxşılaşması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində davamlı tədbirlər görülür. Atılan addımlar və sosial sahədə





***Tahir Mirkişili:***
*Ötən 15 ildə ölkəmizdə daxili sabitlik daha da möhkəmlənib, iqtisadi inkişafa nail olunub, davamlı islahatlar həyata keçirilib*

ardıcıl şəkildə həyata keçirilən layihələr isə onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

Eləcə də bu gün demokratik prinsiplərin inkişafına, bu prinsiplərə sədaqətinə görə ölkəmiz postsovet məkanında birinci, dünyanın ən aparıcı dövlətləri arasında isə öncül sırada dayanır. Demokratik təsisatların inkişafına xüsusi diqqət yetirən Azərbaycan hakimiyyəti ölkəmizdə gedən siyasi proseslərdə, o cümlədən insan haqlarının qorunması məsələsində hər zaman şəffaflığı, qanunun tələblərinin qorunması prinsipini əsas tutur.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənovun "On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi" adlı məqaləsində də göstərilir ki, cənab İlham Əliyev Özünün 15 illik prezidentliyi dövründə, ilk növbədə, Ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş vətəndaş birliyi platformasına söykənərək daxili ictimai-siyasi sabitliyi daha da möhkəmlədib, əhalinin təhlükəsizliyini, insanların əsas hüquq və azadlıqlarını, ölkənin əmin-amanlığını təmin edib, vətəndaşların rifah halının getdikcə yüksəlməsinə nail olub. Məqalədə bildirilir ki, hazırda tərəddüd etmədən söyləmək olar ki, daxili milli-vətəndaş birliyi, hakimiyyətin yürütdüyü siyasətin geniş əhali tərəfindən dəstəklənməsi əsasında bərqərar olmuş möhkəm ictimai-siyasi sabitlik əmsalına görə Azərbaycan postsovet məkanında birinci yerdə dayanır: **"Digər əsas daxili inkişaf parametrləri - makroiqtisadi sabitlik, dinamik inkişaf edən iqtisadiyyat, sosial və mənəvi təminat sisteminin dinamikası, müsbət demoqrafik vəziyyət, miqrasiya və urbanizasiya proseslərinin dövlətin nəzarəti altında saxlanması, dövlət idarəçiliyinin effektivliyi və s. üzrə də Azərbaycan son 15 ildə region ölkələri içərisində birinci üçlükdə öz yerini möhkəmləndirib".**

Məsələ ilə bağlı fikirlərini bölüşən Milli Məclisin deputatı Tahir Mirkişili ölkəmizdə həyata keçirilən çoxşaxəli siyasətin mühüm nailiyyətlərlə müşayiət olunduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanda bütün sahələr üzrə uğurlar əldə olunub. Millət vəkili qeyd edib ki, ötən 15 ildə ölkəmizdə daxili sabitlik daha da möhkəmlənib, iqtisadi inkişafa nail olunub, davamlı islahatlar həyata keçirilib. Bununla yanaşı, Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki yeri də ildən-ilə möhkəmlənir: **"Azərbaycanda həyata keçirilən iqtisadi və institusional islahatlar qısa müddətdə iqtisadi inkişafa və sosial təminata öz müsbət təsirini göstərib. Vurğulamaq lazımdır ki, inkişafın kompleks təmini ölkədəki siyasi sabitliyə, vətəndaş birliyinə əsaslanır. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət kursu ölkəmizdə vətəndaş birliyinin möhkəmlənməsini şərtləndirib. Vətəndaşların sosial təminatının gücləndirilməsi istiqamətində davamlı addımlar atılır. Əhalinin təhlükəsizliyinin təmini məsələsi dövlət siyasətinin əsas prioritetlərindəndir. Azərbaycanın Konstitusiyası insan hüquq və azadlıqlarının qorunması baxımından dünyanın ən təkmil əsas qanunlarındandır. Son 15 ildə ölkəmizdə qanunvericilik sahəsində mühüm islahatlar davam etdirilir və bu da müasir dövrün çağırışları ilə səsləşir. Eləcə də Azərbaycan iqtisadiyyatının bütün sektorlarında dinamik artım müşahidə olunur. Artımla yanaşı, iqtisadiyyatın strukturunda böyük keyfiyyət dəyişiklikləri müşahidə olunmaqdadır ki, bu da islahatların əsas hədəflərindən biridir. Prezident İlham Əliyevin apardığı gələcəyə yönəlik və dərin təhlillərə əsaslanan iqtisadi və xarici siyasəti nəticəsində Azərbaycan iqtisadi potensialını daha da artırır və öz iqtisadi maraqlarının Avrasiya regionunda təmin olunması yolunda əhəmiyyətli nəticələr əldə etməkdədir".**

Millət vəkili onu da deyib ki, dövlət başçısı tərəfindən aparılan uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan regionda ən etibarlı, sözü və əməli üst-üstə düşən dövlət kimi öz mövqelərini daha da möhkəmləndirib: **"Məhz bu uğurlu mövqe iqtisadiyyatı daha da dinamik inkişaf etdirməyə, islahatları daha da əhatəli aparmağa imkan verir, ölkəyə yeni texnologiyaların cəlb edilməsi ilə insan kapitalı inkişaf edir və bütün bunların nəticəsi isə insanların rifah halının yaxşılaşmasında, onların təhlükəsiz yaşamasında öz əksini tapır və tapacaq".**



***Rauf Əliyev:***
*Son 15 ildə ölkəmizdə hüquq və azadlıqların qorunması istiqamətində mühüm addımlar atılıb*

Milli Məclisin deputatı Rauf Əliyev də son 15 ildə ölkəmizdə hüquq və azadlıqların qorunması istiqamətində mühüm addımların atıldığını bildirib. Onun sözlərinə görə, ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanır. Millət vəkili bildirib ki, çağdaş dünyada hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyil. Demokratiya, inkişaf, insan hüquq və azadlıqlarına hörmət bir-biri ilə üzvi surətdə bağlı olan və bir-birini şərtləndirən amillərdir: **"Azərbaycan müstəqillik qazandıqdan sonra ilk növbədə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Azərbaycan Respublikasının ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan edilib. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq, hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulub. Məhz Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamına əsasən, 18 iyun Azərbaycanda İnsan Hüquqları Günü elan edilib. Son 15 il ərzində ölkə Prezidenti tərəfindən qətiyyətli və davamlı şəkildə aparılan dövlət siyasəti sayəsində söz və mətbuat azadlığı, özünüifadə hüququ daha da genişləndirilib. Milli Məclisdə İnsan hüquqları komitəsi, Ombudsman aparatının fəaliyyəti ölkəmizdə demokratik prinsiplərə hörmətin göstəricisi sayılmalıdır. Ölkəmiz insan hüquqlarının qorunması prinsiplərini özündə ehtiva edən beynəlxalq müqavilələri və konvensiyaları dəstəkləyir".**

**Pərviz SADAYOĞLU**

# UNEC-in təhsil imkanları XII Beynəlxalq Təhsil Sərgisində yüksək qiymətləndirilib

UNEC XII Azərbaycan Beynəlxalq Təhsil Sərgisində (Education-2018) təmsil olunur.

Təhsil Nazirliyinin dəstəyi, "Caspian Event Organisers" ("CEO") şirkətinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində təşkil olunan XII Azərbaycan beynəlxalq təhsil sərgisi "Uşaqların gələcəyinə sərmayə" devizi altında keçirilib. UNEC-in öz stendi ilə təmsil olunduğu sərgidə dünyanın 12 ölkəsindən 130-dan çox iştirakçı bir araya gəlib.




Açılış mərasimində Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Ceyhun Bayramov, təhsil müəssisələrinin rəhbərləri və təhsil qurumların nümayəndələri iştirak edib. Mərasimdə çıxış edən təhsil naziri Ceyhun Bayramov Təhsil Nazirliyinin son illərdə təhsilin inkişafı sahəsində həyata keçirdiyi islahatların ayrı-ayrı pavilyonlarda əksini tapdığını vurğulayaraq, sərginin ziyarətçilər üçün faydalı olacağını bildirib.

Sərgi ilə tanışlıq zamanı Prezident Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, təhsil naziri Ceyhun Bayramov UNEC stendini ziyarət ediblər. UNEC-in İnzibati və təşkilati məsələlər üzrə prorektoru, dosent Şaiq Əsgərov rəsmi ziyarətçilərə universitetin təqdim etdiyi təhsil xidmətləri barədə ətraflı məlumat verib. UNEC-in dünyanın nüfuzlu universitetləri ilə bakalavr və magistratura pilləsi üzrə ikili diplom proqramı həyata keçirdiyini diqqətə çatdırıb, eləcə də beynəlxalq mübadilə, UDİD, təqaüd və təcrübə proqramlarından bəhs edib. UNEC-in təqdim etdiyi ikili diplom proqramları rəsmi ziyarətçilərin xüsusi marağına səbəb olub, onlar tətbiq olunan yenilikləri yüksək qiymətləndiriblər.

Sonra UNEC stendində Texnologiya və dizayn fakültəsinin tələbələrinin qrafik əl işlərini yerinə yetirmə prosesi izlənilib.

XII Azərbaycan Beynəlxalq Təhsil Sərgisi (Education-2018) oktyabrın 13-dək davam edəcək. Sərgidə UNEC nümayəndələri ziyarətçiləri universitetin bakalavr, magistratura və doktorantura pilləsi üzrə təhsil imkanları, ixtisaslar, beynəlxalq əlaqələr, ikili diplom, mübadilə, təqaüd və təcrübə proqramları ilə tanış edəcək.

Qeyd edək ki, UNEC stendi daha öncə zəngin məlumatları, kreativ dizaynı ilə "Ən Yaxşı Universitet Təqdimatı" və "Ən orijinal stend" nominasiyalarının qalibi olub.

# Azərbaycan ötən dövr ərzində çox mühüm nailiyyətlər əldə edib



***Milli Məclisin deputatı Nəriman Əliyev www.yap.org.az saytına müsahibə verib:***

**- Nəriman müəllim, Azərbaycan son 15 ildə bütün sahələrdə möhtəşəm uğurlar qazanıb, respublikamızın beynəlxalq nüfuzu daha da artıb. Ölkəmizdə ötən müddət ərzində həyata keçirilən uğurlu siyasət sayəsində əldə edilən nəticələr və nailiyyətlər barədə nə deyə bilərsiniz?**

- Bu gün Azərbaycan beynəlxalq miqyasda həm demokratik dövlət, həm özünəməxsus inkişaf modelinə malik olan ölkə, həm də etibarlı tərəfdaş kimi tanınır. Şübhəsiz ki, bu, uğurlu, müasir çağırışlara cavab verən daxili və xarici siyasət sayəsində mümkün olub. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu - inkişaf siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan ötən müddət ərzində çox mühüm nailiyyətlər əldə edib, bütün sahələrin tərəqqisinə nail olmağı bacarıb. Heç şübhəsiz, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə keçdiyi inkişaf yolunun ən mühüm keyfiyyətlərindən biri sabitlik və tərəqqinin paralel olmasıdır.

İnkişafın təməli kimi dəyərləndirilən sabitliyin ölkəmizdə yüksək səviyyədə qorunması uğurların bir-birini əvəzləməsinə geniş imkanlar açıb. Azərbaycan bu gün sabitlik adası kimi xarakterizə olunur, ölkəmizdə etibarlı sabitlik mühiti hökm sürür. Şübhəsiz ki, bu, davamlı iqtisadi inkişafa təkan verir və yeni uğurların əldə edilməsini şərtləndirir. Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının inkişafı davamlı və dinamik xarakter daşıyır. Son 15 ildə bütün dünya miqyasında iqtisadi baxımdan Azərbaycan qədər inkişaf edən ölkə olmayıb. Respublikada innovativ əsaslı, elm tutumlu iqtisadiyyat quruculuğu davamlı şəkildə diqqət mərkəzində saxlanılıb. Belə məqsədyönlü yanaşmanın nəticəsidir ki, 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri, 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentlikləri də Azərbaycanın sosial-iqtisadi inkişafını, bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələrini olduqca yüksək qiymətləndirirlər. Bu yaxınlarda nüfuzlu reytinq agentlikləri öz hesabatlarında Azərbaycan iqtisadiyyatının 2018-2021-ci illərdə orta hesabla 3 faiz artacağına dair proqnozlar ifadə ediblər.

Ötən müddət ərzində qazanılmış nailiyyətlərin fonunda Azərbaycanın beynəlxalq nüfuzu da kifayət qədər artıb. Ölkəmiz beynəlxalq miqyasda müsbət imicə malikdir. Nüfuzlu, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edən, tolerant Azərbaycan həm də multikulturalizm ideyalarını uğurla təbliğ və təşviq edir, sivilizasiyalararası dialoqa mühüm töhfələr verir. Bir sözlə, həyata keçirilən uğurlu daxili və xarici siyasətin real nəticəsi kimi, müstəqil Azərbaycan inkişaf yolunda inamla irəliləyir.

**- Bu günlərdə Prezident İlham Əliyevin Sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirildi. Bu dövrdə əldə olunan nəticələr haqqında nə deyə bilərsiniz?**

- 2018-ci ilin əvvəlindən dünyada müşahidə edilən bir sıra ciddi kataklizmlərə baxmayaraq, respublikamız son 9 ayda da özünün ənənələrinə sadiq qalıb və əvvəlki illərdə yaradılan fundamental baza əsasında inkişaf tendensiyasını davam etdirib. Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında diqqətə çatdırılan statistik rəqəmlərdən də göründüyü kimi, bəhs olunan dövrdə ölkənin müsbət reallıqları daha da artıb. Təsadüfi deyil ki, Prezident İlham Əliyev iclasda söylədiyi nitqində ötən 9 ayın yekunlarını yüksək dəyərləndirib: **"2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla və vaxtında icra edilir. Azərbaycan 2018-ci ildə də öz dinamik inkişafını təmin etmişdir və ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır".**

Güclü iqtisadiyyat olmadan ölkənin inkişafını təsəvvür etmək belə mümkün deyil. Xarici mənfi təsirlərə müqavimət gücünə malik iqtisadiyyat qurulması müstəqil Azərbaycanın milli gücünü artıran fundamental amil rolunda çıxış edir. Milli iqtisadiyyatımızın inkişafını təmin etmək üçün həyata keçirilən tədbirlər sırasında Prezident İlham Əliyevin meydana çıxan çağırışlara və ölkənin reallıqlarına uyğun qəbul etdiyi mühüm qərarlar, imzaladığı müvafiq Fərman və sərəncamlara əsasən ayrı-ayrı istiqamətlər üzrə həyata keçirilən islahatlar böyük aktuallıq daşıyır. Qeyd edim ki, respublikamızda qeyri-neft iqtisadiyyatının möhkəmləndirilməsinə, istehsal və ixrac imkanlarının artırılmasına hesablanan islahatlar bir-birini tamamlayır ki, bu da investisiyaların daha prioritet sahələrə istiqamətləndirilməsi baxımından çox önəmlidir. Hazırda respublikamızda dövlət başçısının imzaladığı müvafiq Fərmanla təsdiqlənən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin uğurla icra edilməsi ölkədə reallaşdırılan islahatların səmərəliliyini daha da artırır.

Eyni zamanda, ölkədə iqtisadi islahatların davamlılığının təmin edilməsi baxımından 2018-ci ilin arxada qalan dövrü də istisna təşkil etməyib. Nazirlər Kabinetinin bəhs olunan iclasında da bildirildiyi kimi, son 9 ayda iqtisadi sahədə islahatların dərinləşməsi istiqamətində çox önəmli addımlar atılıb. Öz növbəsində ölkədə genişməzmunlu islahatların, eləcə də müxtəlif istiqamətlər üzrə qəbul edilən Dövlət proqramlarının reallaşdırılmasının uğurla təmin edilməsi milli iqtisadiyyatın genişlənməsini və müsbət göstəricilərin qazanılmasını təmin edir. Respublikamızda dövlət başçısının siyasi iradəsi əsasında aparılan islahatlar ilk növbədə qeyri-neft iqtisadiyyatının üstün inkişafının təmin edilməsinə hesablanıb. Postneft iqtisadiyyatının qurulmasına yönələn davamlı səylərin nəticəsidir ki, bütün ölkə boyu neftdənkənar sahələrdə yeni istehsal müəssisələri istifadəyə verilir.

Son doqquz ayın nəticələri ölkəmizin qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. Məmnunluq hissi ilə vurğulamaq istərdik ki, artıq milli iqtisadiyyatımızda özəl sektorun ümumi payı 70 faizi ötüb ki, bu da böyük nailiyyətdir. Bəhs olunan dövrdə də milli iqtisadiyyatımızda ən yaxşı inkişaf göstəriciləri məhz neftdənkənar istiqamətlərdə qeydə alınıb.

**- Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini şərtləndirən əsas amil səmərəli və çoxşaxəli xarici siyasətin həyata keçirilməsidir. Xarici siyasət sahəsində atılan məqsədyönlü addımlar və qazanılmış uğurlarla bağlı düşüncələriniz nədən ibarətdir?**

- Azərbaycanın xarici siyasəti milli maraqlara əsaslanır və müasir çağırışlara cavab verir. Ölkəmiz dünyaya uğurla inteqrasiya edir, beynəlxalq müstəvidə mütəmadi olaraq yeni nailiyyətlər qazanır. Azərbaycan daim beynəlxalq miqyasda cərəyan edən proseslərə öz müsbət təsirini göstərməyə çalışır, qlobal müstəvidə sülhyaratma missiyalarında, terrorizmə qarşı birgə mübarizə tədbirlərində fəal iştirak edir. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan özünün əlverişli coğrafi mövqeyindən yararlanaraq daim yeni qarşılıqlı faydalı əməkdaşlıq təşəbbüsləri irəli sürür. Bunun da məntiqi nəticəsidir ki, Azərbaycanın dostlarının və tərəfdaşlarının sayı davamlı olaraq artır, ölkəmizin dünyanın əksər dövlətləri ilə diplomatik münasibətləri, iqtisadi-ticarət əlaqələri yüksələn xətlə inkişaf edir. Bunun bariz nümunəsi respublikamızın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsidir. Bu, Azərbaycanın xarici siyasətinin nəticələrinin olduqca yüksək qiymətləndirilməsi, ölkəmizə olan böyük inam və etimadın ifadəsidir.

Azərbaycan, eyni zamanda, müxtəlif ölkələrlə çox fəal siyasi dialoqa malikdir və diplomatik fəaliyyətini uğurla davam etdirir. Elə son zamanlar müşahidə edilən proseslər də bu həqiqəti əks etdirir. Belə ki, bu yaxınlarda Almaniya Kansleri Angela Merkelin Azərbaycana səfəri, Prezident İlham Əliyevin Rusiyaya, Qırğızıstan və Xorvatiyaya, Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri zamanı əldə olunmuş nəticələr Azərbaycanın xarici siyasətinin dinamikliyini, ölkəmizin yüksək beynəlxalq nüfuza malik ölkə olduğunu, dünyada Azərbaycana hörmətlə yanaşıldığını əks etdirir. Bütün bunlar Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyinin ardıcıl olaraq möhkəmləndiyini göstərir.

**- Nəriman müəllim, regionun lider dövləti olan Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm enerji layihələri reallaşdırılır, eyni zamanda, ölkəmiz Avrasiyanın nəqliyyat xəritəsinə öz dəyərli töhfəsini verir...**

- Bəli, bu gün Azərbaycanın iştirakı olmadan regionda hər hansı bir layihə gerçəkləşdirilə bilməz. Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın moderatorluğu ilə regionda strateji əhəmiyyətli layihələr reallaşdırılır, yeni əməkdaşlıq platformaları yaradılır. Hazırda respublikamızın təşəbbüsü ilə Xəzər hövzəsini uzaq Adriatik dənizi, oradan isə Avropa ölkələri ilə əlaqələndirən Cənub Qaz Dəhlizi inşa olunur. İnvestisiya dəyəri 40 milyard dollardan çox olan bu layihə 7 ölkəni birləşdirir. Cənub Qaz Dəhlizinin resurs mənbəyi rolunda Azərbaycanın zəngin "Şahdəniz" yatağı çıxış edir. "Şahdəniz" qaz yatağı üzrə kontrakt 1996-cı il iyulun əvvəlində imzalanıb. Ehtiyatları 1 trilyon kubmetrdən çox qiymətləndirilən "Şahdəniz" dünyanın ən böyük qaz yataqlarından biridir. "Şahdəniz" yatağının işlənməsi, Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi, TANAP və TAP kimi seqmentlərdən ibarət olan Cənub Qaz Dəhlizinin icrasına 4 il bundan əvvəl Bakıda başlanılıb. Arxada qalan 4 il ərzində layihənin bütün seqmentləri üzrə böyük iş həcmi yerinə yetirilib. Təsdiq olunmuş 2,6 trilyon kubmetr qaz ehtiyatına malik olan Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atmaq və ixrac coğrafiyasını daha da genişləndirmək fikrindədir. İki il ərzində Azərbaycan qazı Avropa məkanına çatdırılacaq və Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək. Azərbaycan qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atmaq və ixrac coğrafiyasını daha da genişləndirmək fikrindədir.

Bunlarla yanaşı, Azərbaycan Avrasiyanın nəqliyyat xəritəsinə də öz dəyərli töhfəsini verir. Ölkəmizin əlverişli coğrafi mövqeyi respublikamızın istər Şərq-Qərb, istərsə də Şimal-Cənub dəhlizlərində vacib rol oynamasını şərtləndirir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin işə düşməsi Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin əyani sübutudur. BTQ Azərbaycan, Gürcüstan və Türkiyə arasında iqtisadi-nəqliyyat əlaqələrinin daha da genişlənməsinə müsbət təsir göstərməklə yanaşı, daha geniş coğrafiyada yerləşən ölkələr üçün də böyük əməkdaşlıq imkanları açır. Bütün bunlar onu göstərir ki, Azərbaycan regionun nəqliyyat-logistika mərkəzinə çevrilib.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI: MƏŞĞULLUQ MƏSƏLƏSİ REGİONAL İQTİSADİ SİYASƏTİN SƏMƏRƏLİ GÖSTƏRİCİSİ KİMİ

Naxçıvan Muxtar Respublikası ölkənin makroiqtisadi proseslərinə öz töhfələrini verməyə davam etməkdədir. Müasir iqtisadi şəraitdə milli iqtisadiyyatın uzunmüddətli perspektivləri üçün zəruri mexanzimlərin işləkliyinin təmin edilməsi muxtar respublikanın iqtisadi potensialını daha da artırmış və bu, özünün sosialyönümlülüyü ilə daha da önəm qazanmaqdadır. Hələ ötən əsrin 90-cı illərinin əvvəllərində təcrübəli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə başladılan iqtisadi islahatlar yeni əsaslar üzərində və yaradıcı ideyalara söykənən addımların atılmasına zəmin yaratdı. Bu dövrdən etibarən bazar münasibətlərinin qanun və tələblərinin üstün tutulduğu təsərrüfat təsisatlarının müəyyənləşdirilməsinə başlanıldı. İqtisadiyyat cari dövr üçün xalqın mənafeyini və dövlətin maraqlarını ifadə etməklə, qarşıdakı dövrlər üçün seçilən prioritetlərə dolğun xidmət etməyi bacardı.

İqtisadi siyasətin müasir şərait üçün düzgün müəyyənləşdirilməsi özündə həm də sosial mahiyyəti yüksək olan amillərin, o cümlədən insan, əmək və məşğulluq anlayışlarının əhatə olunmasını şərtləndirdi, bu sahədəki proseslərin məqsədyönlülüyünü təmin etdi. Təbii ki, hər üç amil bütün dövrlər üzrə hər bir dövlətin aktual məsələ kimi diqqətdə saxladığı problemdir. Hazırkı dövrdə də Azərbaycan Respublikasında ölkə başçısı tərəfindən qətiyyətlə davam etdirilən milli iqtisadiyyat quruculuğu prosesləri məhz məşğulluq siyasətinin səmərəliliyindəki məhsuldarlığın davamlılığını təmin etdi. Hüquqi və iqtisadi tənzimləmələrlə onun uzaq gələcək üçün perspektivlərini artırdı.

Qeyd etmək lazımdır ki, son 15 ildə ölkəmizdə məşğulluq siyasətinin səmərəli təşkili və idarə olunmasında uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının da mühüm və strateji əhəmiyyəti vardır. Əsasən beş illik dövrlər üçün makroiqtisadi proseslərin tənzimlənməsini hədəfləyən həmin proqramlar bütün iqtisadi rayonlar üzrə məşğulluq potensialının formalaşdırılması sahəsində də hərəkətverici təsirə malik oldu. Bu sahədə müvafiq infrastruktur təşkilatlanmasının həyata keçirilməsi, istehsal münasibətlərinin inkişafında regionların çəkisinin artırılması və əmək ehtiyatlarından məhsuldar istifadənin təminatı öz aktuallığı ilə seçildi. Məhz bu kimi qətiyyətli addımlar Naxçıvan Muxtar Respublikasının da müasirləşən, inkişaf edən və abadlaşan mənzərəsini yaratdı.

İqtisadiyyatın davam edən islahatlar fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoyması onun həm də çoxşaxəliliyinin təmin edilməsinə zəmin yaratdı. Bu mənada Ulu öndərin müəyyən etdiyi davamlı sosial-iqtisadi inkişaf strategiyası müasir müstəqillik dövrünün son 23 ilində muxtar respublikanın keçdiyi tarixi-iqtisadi inkişaf yolu və sosiallaşma səviyyəsi yüksək olan təkmil idarəetmənin yaradılması baxımından güclü mahiyyət kəsb etdi. Təbii ki, bu, eyni zamanda, insan amilinin üstün tutulduğu, onun maraq və mənafeyinin qorunduğu, daha firavan yaşam tərzi ilə əhatələndiyi mühitin mövcudluğu ilə birgə müşayiət olundu.

Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın hazırkı mərhələsi burada səmərəli və perspektivli məşğulluq potensialının formalaşdırılmasına stimul vermişdir. Xüsusən də bu, regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının qəbul edilməsindən keçən müddətdə daha da davamlı xarakter daşımışdır. Aşağıdakı şəkildə birinci və ikinci Dövlət proqramlarının səmərəli icrası nəticəsində Naxçıvan Muxtar Respublikasında açılmış iş yerlərinin rayonlar üzə bölgüsü verilmişdir:

*Naxçıvan Muxtar Respublikasında birinci və ikinci regional inkişaf Dövlət proqramlarının icrası müddətində açılmış iş yerlərinin cəmi sayı*




Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası uzun illərdir ki, hətta müstəqillik yollarında ilk addımlarını atmağa başladığı gündərdən belə tarixi düşmənlərin blokada təhdidləri ilə qarşı-qarşıya qalmışdır. Buna baxmayaraq, yenə də qətiyyətli və güclü təcrübə əsasında makroiqtisadi proseslərə hərəkətverici təsir etməklə, çoxşaxəli iqtisadiyyata öz töhfələrini verməkdədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən 1 sentyabr 2014-cü il tarixdə imzalanan fərmanla təsdiq edilən Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı bu istiqamətdə güclü bazaya çevrildi. Mövcud potensialın artmasında daha da çevik mexanizmlərin yer aldığı bu hüquqi sənəd muxtar respublikada məşğulluq səviyyəsinin daha da artırılması və yeni iş yerlərinin açılması sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsini nəzərdə tutur:

- sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin davam etdirilməsi;
- qeyri-məşğul əhalinin peşə hazırlığının yüksəldilməsi;
- müstəqil məşğulluğun inkişafını təmin edən tədbirlərin həyata keçirilməsi;
- əmək yarmarkalarının keçirilməsi sahəsində səmərəliliyin artırılması;
- idarə, müəssisə və təşkilatların işçilərə olan tələbatının müntəzəm öyrənilməsi və boş iş yerlərinə işaxtaran vətəndaşların göndərilməsinin təmin edilməsi;
- məşğulluq xidməti orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi;
- kənd yerlərində sosial və kommunal infrastrukturun daha da inkişaf etdirilməsi yolu ilə əhalinin məskunlaşma səviyyəsinin yüksəldilməsi və s.

Keçən müddət ərzində muxtar respublikada yuxarıda göstərilən tədbirlərin həyata keçirilməsi nəticəsində sağlam və məhsuldar fəaliyyət mühitinin yaradılması təmin edilmişdir ki, bu da öz növbəsində etibarlı məşğulluğun təminatına yol açmışdır. Nəticədə isə Dövlət proqramlarının icra olunma müddətinin sonlarına yaxın yeni iş yerlərinin açılması öz davamlılığı ilə seçilmişdir. Bu, aşağıdakı şəklin məlumatlarında öz əksini tapmışdır.

*Naxçıvan Muxtar Respublikasında 2014-2017-ci illərdə açılmış iş yerlərinin cəmi sayı*




Elmi cəhətdən əsaslandırılmış, bununla da muxtar respublikanın sosial-iqtisadi həyatında dayanıqlı inkişafla müşayiət olunan tədbirlər regional Dövlət proqramlarının ən mühüm nailiyyətləri kimi ifadə olunmalıdır. Rayonların iqtisadiyyatın sahə strukturu üzrə təşkilatlanmasında, həmin sahələr üzrə tələbata uyğun məhsul istehsalının stimullaşdırılmasında, nəticə etibarı ilə isə artan tələbatlar qarşısında güclü və dayanıqlı təminat qabiliyyətinə malik iqtisadi potensialının formalaşmasında həmin Dövlət proqramlarının mühüm əhəmiyyəti olmuşdur. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında:

- əhali problemlərinin öyrənilməsindən;
- onun sosial-iqtisadi inkişaf proseslərinin çevik iştirakçısı olmasından;
- təhsil səviyyəsinin yüksəldilməsindən;
- ixtisaslaşmış kadr potensialının formalaşmasından;
- əhalinin məşğulluğunun təmin olunmasından ibarət tədbirlərin səmərəli təşkili və idarə olunması məsələləri öz aktuallığı ilə seçilməkdədir. Bu istiqamətdəki proseslərin hüquqi bazasının yaradılması və inkişafında strateji əhəmiyyətə malik olan tənzimləmələr muxtar respublikada dayanıqlı məşğulluq potensialını formalaşdırmışdır. Bunlardan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən:
- 2007-ci il 30 may tarixdə imzalanan sərəncamla Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramının (2007-2010-cu illər);
- birinci mərhələdə 18 dekabr 2013-cü il tarixdə imzalanan sərəncamla 2014-2015-ci illəri əhatə edən;
- ikinci mərhələdə isə 11 yanvar 2016-cı il tarixdə imzalanan sərəncamla 2016-2020-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılmasına dair Dövlət Proqramı"nın strateji əhəmiyyəti vardır ki, bu da qarşıdakı illərdə yaradılması hədəflənən yeni iş yerlərinin açılmasına öz töhfələrini verməkdədir.

Bununla yanaşı, digər sahəvi hüquqi tənzimləmələrin həyata keçirilməsi məşğulluq siyasətinin həm birbaşa, həm də dolayısı ilə səmərəliliyini artıran çox mühüm amilə çevrilmişdir. Məhz bütün bunların nəticəsində də Naxçıvan Muxtar Respublikası 2004-2017-ci illərdə strateji məqsəd olaraq dövlət siyasətinə çevirməklə hədəflədiyi məşğulluq perspektivlərini daha da artırmağa nail olmuşdur. Aşağıdakı şəklin məlumatlarında bunu görə bilərik.

*Naxçıvan Muxtar Respublikasında 2004-2017-ci illərdə açılmış iş yerlərinin cəmi sayı*




Məşğulluq bütün dövrlərin aktuallığını qoruyan ən mühüm məsələsidir. Müasir dünyada daha da sürətlənən qeyri-sabit hərəkətlənmələr, təəssüf ki, öz neqativ təsirlərini daha çox müqavimət gücü zəif olan dövlətlərin sosial siyasətlərinə etməkdə, bu isə onların məşğulluq potensialını aşağı salmaqdadır. Azərbaycan Respublikasında isə prioritetlərin düzgün müəyyənləşdirilməsi məhz həmin istənməz hallara qarşı qabaqlayıcı tədbirlər olaraq zəruri əhəmiyyət kəsb etməkdədir. Bu isə, təbii ki, ölkənin etibarlı regional siyasətində məşğulluq strategiyasının önəmini daha da artırır.

Məhz bu prizmadan yanaşdıqda qeyd edə bilərik ki, ölkənin regional siyasətinin səmərəliliyinin qorunmasında və eyni zamanda, milli iqtisadiyyatın müqavimət gücünün artmasında Naxçıvan Muxtar Respublikasının rolu böyükdür və bu, özünü həm də dayanıqlı sosial siyasətin tərkib hissəsi olaraq məşğulluq sahəsində də göstərməkdədir. Fikrimizi əsaslandırmaq üçün qeyd edə bilərik ki, təkcə 1 iyul 2008-ci il tarixdən cari ilin müvafiq dövrünədək muxtar respublikada 39 min 319 yeni iş yeri açılmışdır ki, bunun da 88,8 faizi daimi iş yerləridir. Təbii ki, bu, eyni zamanda, muxtar respublikanın özünün daxili regional siyasətinin də perspektivliliyini göstərən başlıca amildir.

Birbaşa olaraq məşğulluq sahəsində Dövlət proqramları ilə hüquqi tənzimləmənin başlandığı 2007-ci ildən üzü bəri muxtar respublikada makroiqtisadi göstəricilərin pozitiv davamlılığı hazırkı dövrdə də özünü göstərməkdədir. Belə ki, son on ildə muxtar respublikada 34 min 933 daimi iş yerinin açılması təmin edilmişdir ki, bunun da sahələr üzrə bölgüsü aşağıdakı şəkildə verilmişdir:

*Son on ildə Naxçıvan Muxtar Respublikasında açılmış daimi iş yerlərinin bölgüsü haqqında məlumat*




Ölkəmizdə məşğulluq imkanlarının genişləndirilməsi sahəsindəki məqsədyönlü tədbirlər əhalinin özünüməşğulluğunun təmin edilməsindəki perspektivlərin artmasını da təmin etmişdir. Xüsusən də ölkə başçısının 7 aprel 2016-cı il tarixli məlum Sərəncamı ölkənin bütün regionlarında bu sahədəki təşəbbüslərin dəstəklənməsini və fəaliyyətin stimullaşdırılmasını sürətləndirmişdir. Fikrimizcə, məhz şəklin də məlumatlarından göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında məşğulluğun tənzimlənməsində həm mövcud potensialın, həm yaradıcı ideyalardan ibarət perspektivlərin, həm də özünüməşğulluğun mühüm payı vardır.

Çox yaxşı haldır ki, muxtar respublika milli iqtisadi quruculuq proseslərindəki iştirakında bütün rayonlarının, şəhər və qəsəbələrinin imkanlarını daha da təkmil ortaya qoymaqdadır. Təbii ki, burada iqtisadiyyatın sosiallaşma səviyyəsinin yüksəldilməsinə yol açan məşğulluq göstəricilərinin böyük rolu vardır. Belə ki, statistik rəqəmlərə diqqət edəndə aydın olur ki, muxtar respublikada son on ildə açılmış ümumi yeni iş yerlərinin 46,5 faizi Naxçıvan şəhərinin, 15,3 faizi Şərur, 11,9 faizi Babək, 6,7 faizi Ordubad, 8,5 faizi Culfa, 4,1 faizi Kəngərli, 4,5 faizi Şahbuz, 2,5 faizi isə Sədərək rayonlarının payına düşmüşdür.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının müasir makroiqtisadi inkişafında məşğulluq göstəricilərinin xüsusi yeri vardır. Bu, bir tərəfdən, iqtisadiyyatın çoxşaxəliliyini göstərirsə, digər tərəfdən isə, müəyyən edilən hədəflərə çatılmasındakı qətiyyətliliyin ifadəsi kimi çıxış edir.

**Cavadxan QASIMOV**
**İqtisad üzrə fəlsəfə doktoru, dosent**

# Beynəlxalq Frankofoniya Təşkilatının İrəvan sammiti uğursuzluqla nəticələndi

***Beynəlxalq Frankofoniya Təşkilatının Baş katibi:*** *Bu təşkilat ölüdür...*




Məlum olduğu kimi, 11-12 oktyabr tarixlərində Ermənistanın paytaxtı İrəvanda Beynəlxalq Frankofoniya Təşkilatının (BFT) 17-ci zirvə görüşü keçirilib. Təşkilatın nizamnaməsinə əsasən, dövlətləri bu təşkilat çərçivəsində birləşdirən əsas amil fransız dili və fransız mədəniyyətinə yaxınlıq olsa da, dünyada sülhün və əmin-amanlığın, insan hüquq və azadlıqlarının təşviq edilməsi arzusu da BFT-nin missiyasını və fəaliyyətinin əsas prinsiplərini təşkil edir. Elə əsl problem də buradan başlanır. BFT-nin növbəti zirvə görüşünün başqa bir ölkənin beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərini pozmuş, minlərlə günahsız insanı qətlə yetirmiş bir dövlətin ərazisində keçirilməsi təşkilatın təbliğ etdiyi dəyərlərlə və prinsiplərlə ciddi ziddiyyət təşkil edir. Axı soyqırımı törətmiş, təcavüzkar, terrorçu bir dövlətlə bu təşkilata üzv olan digər dövlətləri bir-biri ilə hansı "ortaq dəyərlər" yaxınlaşdıra, bağlaya bilər? Digər dövlətin 20 faiz ərazisini otuz ilə yaxın işğal altında saxlayan, Xocalı qətliamını törədən Ermənistanda dünyada sülhün və əmin-amanlığın, insan hüquq və azadlıqlarının təşviq edilməsi missiyasını üzərinə götürən Beynəlxalq Frankofoniya Təşkilatının sammitinin keçirilməsi qərarının özü bir cəfəngiyatdır. Ermənistan kimi dövlətin ərazisində bu cür tədbirin keçirilməsi təşkilatın təbliğ etdiyi dəyərlərlə və prinsiplərlə ciddi ziddiyyət təşkil edir. Elə İrəvanda keçirilən tədbir də bir sıra ziddiyyətlərlə yadda qalıb və uğursuzluqla nəticələnib. Belə ki, bütün dünya sammit zamanı humanizm, sülh, insan hüquq və azadlıqları kimi ümumbəşəri dəyərlərin müdafiəsi yollarının axtarışı əvəzinə Fransa Prezidenti E.Makron ilə təşkilatın Baş katibi Mişel Jan qarşıdurmasının şahidi olub. Qarşıdurma isə bəşəriyyət üçün mühüm əhəmiyyət kəsb edən məsələ üstündə deyil, sırf hakimiyyət hərisliyi və bölgüsü ilə bağlı olub. Bunu yalnız əslən Kanadadan olan Mişel Jan və Makron qarşıdurması deyil, eyni zamanda, Makron və Kanada baş naziri Justin Tridönün ambisiyalarının toqquşması kimi də səciyyələndirmək olar. Fransa geosiyasi maraqlarının ifadəsi olan Frankofoniya təşkilatına nəzarətində olmayan və tam idarə edə bilmədiyi bir şəxsin rəhbərlik etməsini qəbul edə bilməzdi. Çünki sənaye dövləti olan Kanada da Frankofoniya vasitəsilə xüsusən Afrika ölkələrində nüfuzunu artırmaq və qitənin təbii sərvətlərinə daha geniş çıxış imkanları əldə etmək kimi məqsədlər güdür.

Təşkilatın Baş katibinin zirvə toplantısının keçirildiyi gün bu təşkilatın ölü halda olduğu barəsində rəsmi twitter hesabından açıqlama verməsini isə diplomatiya tarixində görünməyən hadisələrdən biri kimi qiymətləndirmək olar. Eyni zamanda, BFT-nin Baş katibi M.Jan yenidən bu posta seçkilərdə Fransa tərəfinin dəstəyini ala bilmədiyinə görə İrəvandakı sammitin açılışı zamanı çıxışında təşkilat barədə tənqidi açıqlamar verib. "Biz qəbul etməyə hazırıq ki, beynəlxalq təşkilatlar şəxsi məqsədlərə xidmət edir...", "Biz qəbul etməyə hazırıq ki, realpolitika, dövlətlər arasında xırda anlaşmalar və ya şəxsi maraqlar naminə "demokratiya", hüquqlar" və "azadlıqlar" kimi anlayışlar yalnız mənası çıxarılmış sadə sözlər səviyyəsinə endirilsin...", "Biz hazırıq ki, qısamüddətli eqoizm, beynəlxalq əməkdaşlığa yalnız mənfəət nəzər nöqtəsindən yanaşma, quldur sərmayə və ya korrupsiya həmrəylik, həqiqi qarşılıqlı tərəfdaşlıq tələblərini üstələsin?", "Özümüzə deməliyik ki, hərəkətsizlik, gecikmə və kompromis regresin bir növüdür, çünki dəyərləri və prinsipləri aldadan (xəyanət edən) təşkilat artıq ölümcül haldadır" və bu kimi digər fikirlər məhz BFT Baş katibinin dilindən səslənib.

Təbii ki, qarşı tərəf də bunu cavabsız qoymamağa çalışıb. Təşkilatın indiki Baş katibini nüfuzdan salmaq üçün dezinformasiya və propaqanda üzrə ixtisaslaşmış fransız mediası Baş katibin BFT-nin vəsaitlərini şəxsi məqsədlər üçün istifadə etməsi, 500.000 avro xərcləyərək öz iqamətgahını təmir etdirməsi, xarici səfərlərdə çoxlu pullar xərclədiyi barəsində məqalələr, xəbərlər hazırlayaraq ictimai dövriyyəyə buraxıb.

Əlbəttə ki, bu sammitin İrəvanda keçirilməsi üçün dəridən-qabıqdan çıxan və zalda oturan Ermənistan rəhbərliyi üçün Beynəlxalq Frankofoniya Təşkilatı barədə tənqidi sözləri eşitmək və digər ziddiyyətli məqamların baş verməsi o qədər də xoş olmayıb. Təşkilata yeni üzv olan Ermənistan bu təşkilat vasitəsilə öz nüfuzunu artırmağa və Azərbaycanın Qoşulmama Hərəkatı kimi nüfuzlu bir platformada üzvlüyünə və qarşıdan gələn sədrliyinə qarşı imkan əldə etməyə çalışsa da rəsmi İrəvanın qazancı iki böyük dövlətin imtiyaz savaşını müşahidə etməkdən başqa bir şey olmayıb.

**Nardar BAYRAMLI**

# Soydaşlarımız Kaliforniyada Merilend prospektinin Arsax adlandırılmasına etiraz edir

*ABŞ-ın Kaliforniya Ştatının Qlendeyl şəhərindəki Merilend prospektinin adının dəyişdirilərək "Arsax" adlandırılmasına etirazla bağlı petisiya hazırlanıb*




Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız və diaspor təşkilatları ABŞ-ın Kaliforniya Ştatının Qlendeyl şəhərindəki Merilend prospektinin adının dəyişdirilərək "Arsax" adlandırılmasına etiraz edirlər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bununla bağlı, artıq diaspor təşkilatlarının etiraz məktubları yayılmaqdadır. Etirazlarda bildirilir ki, Dağlıq Qarabağ Azərbaycanın əbədi və əzəli torpağıdır. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Ermənistanın işğalçılıq siyasətinə son qoymasına çağırışla bağlı, BMT başda olmaqla, müxtəlif beynəlxalq təşkilatların dəfələrlə qətnamə, bəyanat və digər sənədlər qəbul etməsinə baxmayaraq, Kaliforniya ştatında belə bir addımın atılması ciddi təəssüf doğurur. Özünü demokratiyanın beşiyi adlandıran, BMT Təhlükəsizlik Şurasının üzvü olaraq Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə dair 822, 853, 874, 884 saylı qətnamələrin lehinə səs verən, ATƏT-in Minsk qrupunun həmsədri də olan bir ölkədə prospektin Arsax adlandırılması, ikili standartların nümunəsidir və Ermənistanın işğalçılıq siyasətinə dəstək cəhdidir.

Bu haqsızlığın aradan qaldırılması, işğalçıya dəstək cəhdinin qarşısının alınması məqsədilə müvafiq etiraz kampaniyasına başlanılıb və bununla bağlı petisiya hazırlanıb. Bütün soydaşlarımızın etiraz aksiyasına qoşulması, petisiyaya imza atması və Ermənistanın işğalçılıq siyasətinə dəstək cəhdinin qarşısının alınmasında iştirakı zəruridir.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# Azərbaycanda pambıqçılığın inkişafı üçün böyük potensial var

*Bu sahədə məhsuldarlığın daha da artırılması məqsədilə dövlət tərəfindən fermerlərə hərtərəfli dəstək göstərilir*



(əvvəli ötən sayımızda)

Göbəktala kənd sakini, təcrübəli pambıqçı Səxavət İsmayılov rayonda ən yüksək məhsuldarlığa nail olan fermerlərdəndir. O, ötən il becərdiyi 30 hektar pambıq sahəsinin hər hektarından 62 sentner məhsul götürüb. Məhsul istehsalçısının sahəsində bu il də pambıq çoxdur. **"Rayon üzrə ən yüksək məhsuldarlığa nail olan fermerlər sırasındayam. Bu il 57 hektar sahədə məhsul becərmişəm. Bitkini aqrotexniki qaydada becərdiyimdən sahədə bol məhsul yetişib. Hələlik məhsulu əl ilə yığırıq. Yaxın günlərdə sahəyə pambıqyığan kombaynları çıxaracağıq. İndiyədək 3 tondan çox məhsul toplamışıq. Yığım apardığımız sahənin məhsuldarlığı 60 sentnerdən yuxarı olur. İlkin nəticə göstərir ki, bu il məhsuldarlıq ötən ildəkindən də yüksək olacaq",** - deyə fermer bildirib.

Qeyd edək ki, bu il imişlili pambıqçılar qarşıya sahələrdən 27 min ton pambıq yığmağı məqsəd qoyublar.

Pambığın alış qiymətinin hər ton üçün 50 manat artırılması biləsuvarlı fermerlər arasında da yüksək əhval-ruhiyyə yaradıb. Dövlətin pambıqçılığın inkişafına göstərdiyi hərtərəfli dəstəkdən yararlanan məhsul istehsalçıları pambıq yığımını qısa müddətdə başa çatdırmaq üçün bütün qüvvələrini səfərbər ediblər. Məhsul toplanışına mütəşəkkil başlayan biləsuvarlı pambıqçılar indiyədək sahələrdən 5 min 695 ton məhsul toplayaraq qəbul məntəqələrinə göndəriblər.

Bu il biləsuvarlı pambıqçılar 11 min 350 hektar sahədə pambıq becəriblər. Ötən il plantasiyalardan 24 min tondan çox məhsul toplayan əkinçilər cari təsərrüfat ilində məhsul istehsalını daha da artırmaq üçün səpin kampaniyasından yığıma kimi bütün aqrotexniki tədbirləri vaxtında həyata keçiriblər. Nəticədə sahələrdə bol məhsul yetişib. İndi qarşıda duran əsas vəzifə məhsulu qısa müddətdə toplamaqdır. Məhsul yığımına əvvəlcədən yaxşı hazırlıq işləri görüldüyündən hər gün sahələrdən 565-570 ton məhsul tədarük olunur.

Sabirabad rayonunda isə pambıq yığımına mütəşəkkil başlayan torpaq mülkiyyətçiləri hər gün sahələrdən 450-500 ton məhsul toplayaraq qəbul məntəqələrinə göndərirlər. Yığım başlayandan bu günədək 6878 ton "ağ qızıl" toplanıb. Tədarük olunan məhsulun 65 faizindən çoxu maşınlarla yığılıb. Sabirabadlı pambıqçılar bu il 13 min 55 hektar sahədə pambıq əkiblər. Ötən il 18 min tondan çox məhsul istehsal edən torpaq mülkiyyətçiləri bu il də sahələrdə bol məhsul yetişdiriblər. Dövlətin aqrar sahənin, xüsusilə pambıqçılığın inkişafına göstərdiyi dəstək sahibkarların bu ənənəvi sahəyə marağını daha da artırıb. İndi rayonda yüzlərlə fermer pambıq əkini ilə məşğul olur və istehsal etdiyi məhsulun satışından yaxşı qazanc götürür.

Qaratəpə kənd sakini, uzun illər pambıq əkini ilə məşğul olan adlı-sanlı pambıqçı, Prezident təqaüdçüsü Fatma Hüseynova ötən il 30 hektar sahədə pambıq əkib və hər hektardan 55 sentner məhsul götürüb. Pambıqçı bu il 32 hektarda pambıq əkib və bu günədək 70 tondan çox məhsul yığıb. Fermerin sahəsində hələ məhsul çoxdur. O, yetişdirdiyi məhsulu son qozasına qədər toplamaq üçün var qüvvəsi ilə çalışır. **"Gənclik illərimdən bu sahədə çalışıram. Pambığın əkilib-becərilməsində yaxşı təcrübə qazanmışam. Bunun sayəsində də hər il əkdiyim sahələrdə məhsul bol olur. Son illər ölkəmizdə pambıqçılığın dirçəldilməsinə göstərilən qayğı məni çox sevindirir. Çünki ömrümün 50-55 ilini bu sahədə işləmişəm. Əməyim dövlət tərəfindən layiqincə qiymətləndirilib. Yenidən pambıq əkini ilə məşğul olmağım məni sanki gənclik illərinə qaytarır. İndi daha böyük həvəslə işləyirəm",** - deyə fermer vurğulayıb.

Kürdəmir rayonunda isə bu il 5030 hektarda pambıq yetişdirilib. Qısa vaxtda tarlalardan 2433 ton məhsul toplanılıb. Rayon İcra Hakimiyyətindən bildirilib ki, əksər ərazilərdə, xüsusilə Muradxan, Ərəbqubalı, Carlı, Qarasu və bir sıra digər ərazi vahidlərində "ağ qızıl" yığımı daha sürətlə, mütəşəkkil davam etdirilir. Məhsul yığımı üçün hər gün sahələrə 2000 nəfərə yaxın işçi qüvvəsi çıxır. Mühüm strateji məhsul olan "ağ qızıl"ın yığılmasına 14 kombayn da cəlb edilib. Bu texnikalar arasında "John Deer" şirkətinin "9970" markalı pambıqyığan kombaynları keyfiyyəti və səmərəliliyi ilə seçilib. İndiyədək toplanan məhsulun yarısından çoxu məhz "Aqrolizinq" ASC tərəfindən ölkəyə gətirilərək güzəştli şərtlərlə fermerlərə verilən bu kombaynlarla yığılıb.

Yüksək məhsuldarlığa malik olan bu kombaynlar dörd cərgənin (cərgəarası 60-90 santimetr) pambığını qozalar 70-80 faiz açıldığı halda belə, bir dəfəyə yığa bilir. Həmin sahəyə ikinci dəfə texnikanın girməsinə ehtiyac qalmır. Nəticədə yığılan pambığın maya dəyəri də aşağı düşür. Bu texnikalar, eyni zamanda, pambığı başqa kombaynlarla müqayisədə daha təmiz yığır. Köhnə kombaynlar isə eyni pambıq sahəsində 3-4 dəfə məhsul yığırdı ki, bu da həm torpağın kipləşməsinə, məhsul itkisinə və onun maya dəyərinin artmasına səbəb olurdu.

Respublikamızın ən iri pambıqçılıq rayonlarından olan Beyləqanda da məhsul yığımı davam edir və indiyədək tarlalardan 4396 tondan çox "ağ qızıl" toplanıb. Beyləqan rayon İcra Hakimiyyətindən verilən məlumata görə, pambıqçılıq sahəsində böyük təcrübəsi olan rayonda 1990-cı illərdən başlayaraq bu sahəyə maraq azalmışdı. Dövlətimizin başçısının tapşırıq və göstərişləri nəticəsində rayonda pambıqçılıq yenidən dirçəlməyə başlayıb. Əgər rayon ərazisində 2016-cı ildə 4035 hektarda pambıq əkilmişdirsə, 2017-ci ildə bu rəqəm 8550 hektara, 2018-ci ildə isə 9560 hektara çatdırılıb. Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb, bitkilər tələbata uyğun optimal müddətdə mineral gübrə və suvarma suyu ilə təmin edilib. Nəticədə yaxşı çıxış alınıb, barlı kollar yetişib. Rayonun fermerləri pambığı əsasən "MKT İstehsalat Kommersiya" MMC-nin Beyləqan filialı, "Azərpambıq" MMC-nin pambıq istehsalı və emalı zavodu və "Kənd Təsərrüfatı" MMC ilə müqavilə əsasında becəriblər.

"Ağ qızıl"ın tez və itkisiz yığılması üçün rayonda bütün qüvvələr səfərbər olunub. Məhsul yığımına 39 pambıqyığan kombayn, üç min nəfərdən çox işçi qüvvə cəlb edilib. Bu texnikalar arasında "Aqrolizinq" ASC-nin ölkəyə gətirərək güzəştli şərtlərlə fermerlərə verdiyi "John Deer" şirkətinin müasir kombaynları da var. Sahələrdən bu günədək pambığın 507 tonu əllə, 3889 tonu maşınla yığılıb. Yığım mütəşəkkil təşkil olunduğundan gün ərzində sahələrdən 450-500 ton məhsul toplanır. Hər hektarın orta məhsuldarlığı 25 sentnerdən çoxdur.

"Azərpambıq" MMC-nin pambıq istehsalı və emalı zavodunun baş aqronomu Məmməd Quliyev deyib: **"Bu il Beyləqan rayonu üzrə 697 fermerlə imzalanan müqaviləyə əsasən 3227 hektarda yüksək kondisiyalı və məhsuldar toxum səpilib. Fermerlər texnika, toxum, gübrə və kimyəvi preparatlarla təmin ediliblər. Pambığın becərilməsi üçün mütəxəssislər də cəlb olunublar. Məhsulu itkisiz və tez bir zamanda yığmaq üçün 2000 hektarda defoliasiya həyata keçirilib. Artıq 558 hektarda birinci yığım aparılıb, 1313 ton məhsul tədarük edilib".**

Fermer Fəxrəddin Qədirov bu il Qəhrəmanlı qəsəbəsi ərazisində 8,5 hektarda pambıq becərib və tarlalarda bol məhsul yetişdirib. **"Pambığın becərilməsində bütün aqrotexniki tədbirləri, xüsusən də ən vacib amillərdən olan suvarmanı vaxtında həyata keçirdim. Odur ki, tarlalarda bol məhsul yetişib. Artıq 3,5 hektarda birinci yığım başa çatıb. Hər hektardan orta hesabla 32 sentner məhsul olub. Yaxın günlərdə qalan 5 hektarın yığımını da həyata keçirəcəyik. Əminəm ki, mövsümün sonunadək məhsuldarlıq 40 sentnerdən çox olacaq. Ölkəmizdə pambıqçılığın inkişafına göstərilən dövlət qayğısından ruhlanaraq, gələn il pambıq sahələrini 15 hektara çatdırmaq fikrindəyəm",** - deyə fermer bildirib.

Qeyd edək ki, bu il rayon üzrə 20 min tondan artıq pambıq istehsalı gözlənilir.

Cəbhə bölgəsində yerləşən rayonlarda da pambıq yığımı davam edir. Belə ki, Füzuli rayonunda indiyədək tarlalardan 950 tondan çox məhsul toplanıb. Füzuli rayon İcra Hakimiyyətindən bildiriblər ki, bu il Füzuli rayonunda 2100 hektar sahədə çiyid səpini həyata keçirilib. Pambıq əkinlərinin 1330 hektarı "P-Aqro" MMC, 630 hektarı "Azərpambıq" MMC ilə müqavilə əsasında, 140 hektarı isə fərdi qaydada becərilib. Pambıq sahələrinə lazımi aqrotexniki qulluq göstərilib, mineral gübrələr verilib, vaxtlı-vaxtında suvarma suyu ilə təmin edilib ki, nəticədə tarlalarda bol məhsul yetişib.

"Ağ qızıl"ın tez və itkisiz yığılması üçün rayonda bütün qüvvələr səfərbər olunub. Tarlalardan məhsul həm kombaynlar vasitəsilə, həm də əl əməyindən istifadə edilməklə yığılır. Pambıq istehsalçıları yığdıqları məhsulu Horadiz şəhərində və Beyləqan rayonunda yerləşən pambıq qəbulu məntəqələrinə təhvil verirlər. İlkin hesablamalara görə, bu il Füzulidə dörd min tondan çox "ağ qızıl"ın istehsal ediləcəyi gözlənilir.

Cari ilin məhsulu üçün 3100 hektar sahədə pambıq becərən ağdamlı fermerlər və torpaq mülkiyyətçiləri də hazırda məhsul yığımını davam etdirirlər. Ağdam rayon Statistika İdarəsindən bildiriblər ki, bu günə qədər tarlalardan 1908,4 tondan çox məhsul toplanıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 26,5 faiz çoxdur. Pambığın 84,8 faizi kombaynlarla yığılıb. Yığılan pambıq "MKT İstehsalat Kommersiya" MMC, "Azərpambıq" MMC, "Kənd Təsərrüfatı" MMC-yə və fərdi qaydada olan pambıq qəbulu məntəqəsinə təhvil verilir. Qeyd edək ki, 2017-ci ildə 3005 hektarda pambıq becərən Ağdam pambıqçıları tarlalardan 6173,26 ton məhsul tədarük ediblər.

**Nardar BAYRAMLI**

## MƏLUMAT

15 noyabr 2018-ci il saat 11:00-da "Atəşgah" Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının Növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələ daxildir:

*** Cəmiyyətin İdarəetmə orqanlarının formalaşdırılması.**

Cəmiyyətin İdarəetmə orqanlarına namizədlər barədə məlumatlarla ümumi yığıncaq zamanı tanış olmaq mümkündür.

Ümumi yığıncağın keçiriləcəyi ünvan:

Bakı şəhəri, Nərimanov rayonu, N.Yusifbəyli pr 75B.

"Atəşgah" Sığorta Şirkətinin inzibati binası.

# Bakcell Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun keçirilməsinə dəstək göstərib




Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan Bakcell oktyabrın 9-da Bakıda keçirilmiş Azərbaycanda Enerji və İKT üzrə Alman-Azərbaycan biznes-forumunun sponsoru olub.

Forum Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyi (Ost-Ausschuss - Osteuropaverein der Deutschen Wirtschaft e.V.) ilə əməkdaşlıq çərçivəsində təşkil olunub. Bu ilki tədbirin əsas mövzularını enerji və İKT sektorunda islahatlar və tərəfdaşlıq üçün perspektivlər təşkil edib. Forumun əsas məqsədi Alman şirkətləri və onların azərbaycanlı tərəfdaşlarının enerji və İKT sahələri üzrə layihə və təkliflərini təqdim etmək və işgüzar əməkdaşlıq üçün mövcud imkanları müəyyən etmək olub.

Tədbirdə Azərbaycan hökumətinin rəsmiləri, yerli biznes mühitinin yüksək vəzifəli nümayəndələri, Almaniyanın Azərbaycandakı səfirliyinin və aparıcı alman şirkətlərinin nümayəndələri iştirak edib. Qonaqlar enerji sektorunda innovasiyalar və iqtisadi islahatlar sahəsində İKT-nin hərəkətverici qüvvəsi barədə panel müzakirələrində iştirak edib.

Qeyd edək ki, Alman-Azərbaycan Xarici Ticarət Palatasının 2018-ci ildən üzvü olan Bakcell şirkəti palatanın əməkdaşlıq və partnyorluq münasibətlərinin stimullaşdırılması və həmçinin Azərbaycanda ümumi biznes mühitinin inkişaf etdirilməsi sahəsində təşkil etdiyi tədbir və təşəbbüslərinə fəal şəkildə dəstək göstərir.

Artıq 20 ildən çoxdur ki Azərbaycanda fəaliyyət göstərən Bakcell şirkəti hazırda müxtəlif sahələri təmsil edən 3500-dən artıq korporativ müştəriyə xidmət edir. Bakcell ölkə iqtisadiyyatının bir çox sektoru üzrə ən böyük korporativ telekommunikasiya xidmətlərinin təminatçısıdır. Şirkət Azərbaycanda fəaliyyət göstərən yerli və beynəlxalq şirkətləri ən yüksək keyfiyyətli telekommunikasiya həlləri ilə təmin edir. "Bakcell"in peşəkar komandası şirkətlərə, dövlət qurumlarına və digər təşkilatlara mobil telekommunikasiya sahəsində istənilən növ xidməti göstərməyə hazırdır. Bakcell özünün korporativ abunəçilərinə təhlükəsiz və etibarlı rabitə təqdim etməklə daha effektiv fəaliyyət göstərməkdə, müştəriləri ilə əməkdaşlıq və sıx ünsiyyət qurmaqda onlara dəstək göstərməklə ölkə iqtisadiyyatın və ümumi biznes sektorunun inkişafına töhfə verir.

# Naxçıvan Muxtar Respublikasında təhsil alan 5 tələbə "Nar"-dan təqaüd alacaq



Elm və təhsilin inkişafına dəstəyi ilə seçilən "Nar"-ın Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində elan etdiyi Təqaüd proqramının nəticələri məlum oldu. Beləki, informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan, xüsusi fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbə "Nar" tərəfindən 200 AZN məbləğində aylıq təqaüd alacaq.

2018-2019-cu tədris ilində təqaüd alacaq tələbələr aşağıdakılardır:

1. Seyidova Aytən Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs
2. Hüseynli İnci İsgəndər qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 3-cü kurs
3. Mahmudova Aytac Rəsul qızı, Naxçıvan Dövlət Universiteti, İnformasiya Texnologiyaları ixtisası, 2-ci kurs,
4. Qəhrəmanova Sevil Qəhrəman qızı, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 3-cü kurs
5. Qəmbərov Allahqulu Zəfər oğlu, Naxçıvan Universiteti, Riyaziyyat və informasiya ixtisası, 4-cü kurs

Təqaüd proqramının qalibləri ilə görüşündə "Azerfon"un mətbuat xidmətinin rəhbəri Əziz Axundov onlara uğurlar arzulayıb və bildirib ki, təhsil və maariflənmənin inkişafı "Nar"-ın xüsusi önəm verdiyi sahələrdən biridir: **"Bu təşəbbüsümüzün tələbələrə yeni bilik və bacarıqları əldə etmələri və gələcəkdə uğurlu karyera qurmalarına dəstək olacağına əminəm. "Nar"-ın təqaüd proqramı növbəti illərdə də davam edəcək".**

Təqaüd proqramı, ilkin olaraq, Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində təhsil alan tələbələr üçün nəzərdə tutulub. Gələcəkdə digər bölgələr və paytaxt Bakı universitetlərinin tələbələri üçün də aylıq təqaüdün verilməsi planlaşdırılır.

Qeyd edək ki, tələbələr üçün təqaüd proqramının elan edilməsi "Nar"-ın korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində reallaşıb. "Nar"-ın KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 7000-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# "Startapçı həyatından bir gün"

*Azercell-in Barama Mərkəzi Gəncədəki startapçı gənclərə dəstəyini davam etdirir*




"Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi PAŞA Bankın dəstəyi ilə yerli startapların inkişafında öz iştirakını davam etdirir. Mərkəz əməkdaşları bu dəfə Azərbaycan Texnologiya Universitetində fəaliyyət göstərən Barama Gəncə Mərkəzində startapları bir araya gətirib. "Startapçı həyatından bir gün" adlı bu görüş biznes ideyalarının stimullaşdırılmasını və praktik biliklərin paylaşılmasını təmin etmək məqsədi daşıyıb. Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin əməkdaşları sahibkarlıq haqqında maarifləndirici məlumatları startapçılarla bölüşərək, öz işlərini qurmaq üçün onlara dəyərli məsləhətlər veriblər. Mərkəz əməkdaşları eyni zamanda sahibkar olmağın çətinlik və üstünlükləri haqqında danışıb, görüş iştirakçılarının suallarını cavablandırıblar. Həmçinin, Mərkəzin rezidentlərindən olan "Owbike" startap-ının rəhbəri Həsənağa Azad da bu görüşdə öz təcrübəsini paylaşıb. "Niyə startapçı olmalısınız?", "Startap qurmağa nədən başlamaq lazımdır?", "Nələrə diqqət edilməlidir?" kimi suallara tam ətraflı və detallı cavab verib, dünya təcrübəsinə əsaslanan məlumatları yerli entuziast gənclərlə paylaşıb.

Gəncədə keçirilən tədbir möhtəşəm ideyası olan və öz biznesinə başlamaq istəyən, yaxud hələ konkret bir ideyası olmayan amma sahibkar olmaq istəyən insanlar üçün əla fürsət olub.

## Allah rəhmət eləsin!

Bakı Dövlət Universitetinin Politologiya və Sosiologiya kafedrasının kollektivi iş yoldaşları Fazil müəllimə, bacısı

**Ünsiyyə Qulammirzə qızı Baxışovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Hikmət BABAOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 6074
"Kapital Bank"ın Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

İnformasiya mənbələrimiz:
"AZƏRTAC",
"Azadinform", "SİA"
Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Buraxılışa məsul:
Zahid İLHAMOĞLU